EVDƏ QAL, SAĞLAM QAL!

## Sahibkarlara dövlət dəstəyinin Azərbaycan modeli



Bax 4

## Müdafiə Nazirliyi:"Sarqsyan bəraət qazanmaq üçün cəfəng fikirlər səsləndirir"



Bax 5




"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 142 (6106) 20 avqust 2020-ci il. Qiyməti 40 qəpik

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.


# Təhsildə aparılan islahatlar xalqımızın işıqlı gələcəyinə hesablanıb



Bax 2

## XİN: "Azərbaycan Türkiyənin bütün addımlarını qətiyyətlə dəstəkləyir"



Azərbaycan tərəfi tarixən Aralıq dənizi bölgəsinin inkişafı və tərəqqisində mühüm rol oynamış qardaş Türkiyənin bölgədə sülh və sabitliyin təmin edilməsinə yönəlmiş beynəlxalq hüquqa söykənən bütün addımlarını qətiyyətlə dəstəkləyir və mövcud gərginliyin tezliklə həllini tapacağına ümidini ifadə edir. Bax 5

## Səfir: "ABŞ etibarlı enerji təchizatçısı rolunu inkişaf etdirən Azərbaycana dəstək verməyə hazırdır"



Amerika Birləşmiş Ştatları (ABŞ) dünyada etibarlı enerji təchizatçısı rolunu inkişaf etdirən Azərbaycana öz dəstəyini verməyə hazırdır. AZƏRTAC xəbər verir ki, bu sözləri ABŞ-ın ölkəmizdəki səfiri Örl Litzenberger "2020-ci ilin Regional Enerji Təhlükəsizliyinə dair Simpoziumu"nda deyib.

Bax 5

## Erməni tapşırığı yerinə yetirənlər...

Bax1 4



Son günlər demoqoqdar yuvası olan "Milli Şura" Azərbaycan dövlətinin uğurlarını, əldə etdiyi nailiyyətləri, işğalçı Ermənistanın törətdiyi təxribatlara layiqli cavabları həzm edə bilməyərək ardıcıl olaraq gecə-gündüz böhtanlı çıxışlar etməkdədirlər. Bu olan işdir, çünki satqınlar yuvası olan "Milli Şura" və AXCP sədri Əli Kərimlinin pultu ilə idarə...

## Miqran Akobyan: "Paşinyan rejimi təhlükəli Soros planlarına xidmət edir"



"Ermənistan hakimiyyəti qanunun gücü ilə Rusiya telekanallarını ictimai multipleksdən çıxarmaq niyyətindədir. Tezliklə Ermənistan sakinləri illər boyu yayımlanan Rusiya kanallarını, o cümlədən Ermənistanda geniş izləyicisi olan "Birinci Kanal", "Rusiya" və "Kultura" kanallarını adi kanallar vasitəsilə izləyə bilməyəcəklər."

Bax 12

## "Azərbaycan regionda güc və söz sahibidir"



"Bu günlərdə qondarma rejimin rəhbərinin Gəncəni hədəf seçərək sərsəm bəyanat verməsi daxili təlatümdən yaranan bir haldır. Çünki düşmən yaxşı bilir ki, bunun üçün onların elə bir potensialları yoxdur. Eyni zamanda... Bax 11

## Ronald Kumanın "Barselona"nın baş məşqçisi oldu!



Bax 16

Kataloniya klubunun rəsmi saytında yer alan məlumatda deyilir ki, 57 yaşlı mütəxəssislə 2022-ci ilin yayına qədər müavilə imzalanıb. "Barselona"ya görə 2018-ci ildən ...

## Bu gündən məhkəmələrin fəaliyyəti tam bərpa olunur



Bax 13

## Sənət tariximizdə ssenarist, rejissor, yazıçı Həsən Seyidbəyli dünyası



Bax 11

## "Qarabağ" qələbə qazandı, ölkəmiz UEFA reytinqində irəlilədi!



Bax 16

# Təhsildə aparılan islahatlar xalqımızın işıqlı gələcəyinə hesablanıb



***"İnkişaf etmiş ölkələrin təcrübəsinə baxdıqda, görürük ki, onları inkişaf etmiş ölkələrə çevirən təbii resurslar yox, məhz bilik, savad, təhsil və elmin inkişafıdır. Ona görə artıq 17 ildir ki, mənim təşəbbüsümlə Azərbaycanda qara qızılı insan kapitalına çevirmək prinsipi əsasında islahatlar aparılır. Bu illər ərzində tamamilə yeni, müasir nəsil yetişib və gənclər bu gün bütün sahələrdə özlərini göstərirlər. Onların fəallığı, bilikləri, müasir texnologiyalara marağı ölkəmizi gücləndirir". Bu fikirləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 27-də Emin Əmrullayevi təhsil naziri təyin olunması ilə əlaqədar videoformatda qəbulda çıxışı zamanı bildirib.***




Dövlət başçısı qeyd edib ki, təhsil sahəsində bu günə qədər aparılan islahatlar daha da dərinləşməlidir. Təhsil ölkəmizin ümumi inkişafına uyğun şəkildə inkişaf etməlidir və ən müasir tələblərə cavab verməlidir. Əlbəttə ki, dünyanın ən sürətlə inkişaf edən, yeniləşən, müasirləşən, demokratikləşən dövlətinə çevrilən Azərbaycanın beynəlxalq aləmdə görünən və diqqətdə olan ölkəyə çevrilməsi əbəs deyildi. Bunun bir sıra səbəbləri var ki, bu da dövlətimizin beynəlxalq aləmdə mövqeyinin daha da möhkəmlənməsinə, dünya birliyinin tam bərabərhüquqlu üzvünə və söz sahibinə çevrilməsində zəmin olmuşdur. Belə ki, dünyanın müxtəlif qitələrində yerləşən dövlətlərlə, aparıcı beynəlxalq təşkilatlarla ikitərəfli və çoxtərəfli əməkdaşlıq münasibətləri, respublikamızda həyata keçirilən mütərəqqi islahatlar, dövlət proqramları kimi amillər ölkəmizin dinamik inkişafını şərtləndirib. Mövcud inkişafın dayanıqlı olması üçün dövlət başçısının çıxışlarının birində qeyd etdiyi kimi, insanlar hazırlıqlı və gənclər bilikli olmalıdırlar. İnkişaf etmiş ölkələrin təcrübəsi, keçdiyi tarixi yol bir daha göstərir ki, məhz həmin dövlətlərdə təhsilə, elmi inkişafa böyük önəm verilir, islahatlar aparılır. Bu gün qloballaşan dünyanın "Təhsil və informasiya əsri" kimi səciyyələndirilməsi təhsilin keyfiyyəti baxımından yeni mərhələnin zəruriliyi meydana çıxıb.

### GƏLƏCƏYİN ÇAĞIRIŞLARINA CAVAB VERMƏK VƏ İNNOVATİV İNKİŞAFIN TƏMİN EDİLMƏSİ BAXIMINDAN TƏHSİLİN MƏZMUNU YENİLƏNİR

Dövlət başçısı tərəfindən təhsilə böyük önəm verilməsi, yeni proqram və layihələrin, təhsil islahatlarının həyata keçirilməsi Azərbaycan təhsilinin dünya standartları səviyyəsində qurulmasına səbəb olub. Təbii ki, dövlətimiz tərəfindən həyata keçirilən tədbirlər ölkəmizin uğurlu gələcəyindən xəbər vermiş olur.

Təhsil hər zaman yeniliklərə və islahatlara açıq bir sahədir. Təhsilin maddi-texniki bazasının gücləndirilməsi, onun infrastrukturunun müasir tələblər səviyyəsində təşkili təhsilin prioritetlərinin dünya elminin inkişaf tendensiyaları istiqamətində qurulmasında əhəmiyyətli rol oynayıb. Təhsil müəssisələrinin müasir informasiya və elmi-metodiki təminatı, təhsil infrastrukturunun yenilənməsi məqsədi ilə dövlət proqramları qəbul edilmiş və layihələr həyata keçirilib. Azərbaycan Respublikası Prezidentinin diqqət və qayğısı nəticəsində, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü ilə ümumi təhsil müəssisələrinin infrastrukturunun müasirləşdirilməsi istiqamətində əhəmiyyətli işlər görülüb. Təhsilin inkişafı ilə bağlı qəbul olunan mühüm strategiya və proqramlar nəticəsində dövlət büdcəsindən təhsilə ayrılan xərclər əhəmiyyətli şəkildə artıb. Cənab İlham Əliyevin vurğuladığı kimi, son illər ərzində təhsilin maddi-texniki bazasının böyük dərəcədə yenilənməsi artıq həll olunub, 3500-dən çox məktəb ya yenidən tikilib, ya da ki, əsaslı təmir edilib: "Azərbaycanda ali məktəblərin mütləq əksəriyyəti müasir standartlara cavab verir, yeni binalar, korpuslar tikilib, yeni ali məktəblər yaradılıb. Hesab edirəm ki, bu sahədə işlərin böyük hissəsi görülüb. Ancaq həllini gözləyən məsələlər də həyatda öz həllini tapmalıdır və burada vaxt itirmək olmaz". Dövlət başçısı dağ kəndlərində və ucqar kəndlərdə modul tipli məktəblərin tikintisi layihəsinin də yaxın iki il ərzində başa çatacağını bildirib. Bununla paralel olaraq, təhsilin keyfiyyəti artmalıdır və artır, - deyən Cənab Prezident burada əsas məsələlərdən birinin müəllimlərin peşəkarlığı olduğunu diqqətə çəkib: "Çünki təhsilin səviyyəsi müəllimlərin peşəkarlığından asılıdır. Müəllimlər uşaqları necə öyrədirlərsə, uşaqlar da buna uyğun şəkildə biliklər əldə edirlər".

Təbii ki, gələcəyin çağırışlarına cavab verməsi və innovativ inkişafın təmin edilməsi baxımından təhsilin məzmununun yenilənməsi mühüm prioritetlərdəndir. Ekspertlərin qənaətinə əsasən, elmi-texnoloji tərəqqi, innovasiyalar və modernləşmə nəticəsində praktiki bilik və bacarıqlarla zənginləşməyən, sırf nəzəri xarakter daşıyan təhsil öz fundamental əhəmiyyətini itirməkdədir.

Ardı Səh. 3

## Rəsmi xronika

Prezident İlham Əliyev Həsən Seyidbəylinin 100 illik yubileyinin qeyd edilməsi haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev Zaqatala rayonunda əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması və əhalinin içməli suya tələbatının ödənilməsinə dair əlavə tədbirlər haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev M.B.Eynullayevin Azərbaycan İnvestisiya Holdinqinin İdarə Heyətinin sədri təyin edilməsi haqqında sərəncam imzalayıb. Sərəncama əsasən, Mətin Balasən oğlu Eynullayev Azərbaycan İnvestisiya Holdinqinin İdarə Heyətinin sədri təyin edilib.

* * *

Prezident İlham Əliyev Marqerita Kostanın "Dostluq" ordeni ilə təltif edilməsi haqqında sərəncam imzalayıb. Sərəncama əsasən, Azərbaycan Respublikası ilə İtaliya Respublikası arasında dostluq və qarşılıqlı əməkdaşlıq əlaqələrinin möhkəmləndirilməsində xüsusi xidmətlərinə görə Marqerita Kosta "Dostluq" ordeni ilə təltif edilib.

# Təhsildə aparılan islahatlar xalqımızın işıqlı gələcəyinə hesablanıb

Əvvəli-Səh-2

Bu baxımdan təhsilin məzmununun formalaşmasında akademik biliklərlə yanaşı, praktik bacarıqların, səriştənin vacibliyi önə çəkilir.

### MÜASİR DÜNYA YÜKSƏK ELMİ POTENSİALA MALİK MÜTƏXƏSSİSLƏRİN HAZIRLANMASINI TƏLƏB EDİR

Keyfiyyətin yüksəldilməsi istiqamətində həyata keçirilən tədbirlər nəticəsində ölkəmizdə təhsilalanlar həm respublika olimpiadalarında, həm də beynəlxalq olimpiadalarda iştirak edərək uğurlar qazanıblar. Həyata keçirilən tədbirlər şagirdlərin ruhunu yüksəldir, onların elmi biliklərə olan marağını daha da artırır. Təkcə 2019-2020-ci tədris ilində Azərbaycan məktəbliləri ümumilikdə 29 müxtəlif beynəlxalq olimpiada və müsabiqələrdə iştirak ediblər. Məktəblilərimiz 15 gümüş, 15 bürünc medal və 4 qızıl medal əldə edib.

Qeyd edək ki, dünyada gedən qloballaşma və inteqrasiya prosesləri ölkəmiz üçün yüksək elmi potensiala malik mütəxəssislərin hazırlanmasını tələb edir. Təhsilin inkişafına ayrılan yüksək diqqət, həm də, Azərbaycanın dünya miqyasında tanıdılmasına və layiqli yerinin təmin olunmasına xidmət edir. Azərbaycanlı gənclərin ölkə üçün zəruri ixtisaslar üzrə xaricdə təhsil almasını və ölkənin inkişafında yaxından iştirak etməsini təmin etmək məqsədi ilə Azərbaycan Prezidenti İlham Əliyevin imzaladığı Sərəncama uyğun olaraq, hazırlanmış "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" istedadlı gənclərinin xaricdə təhsil almalarına yollar açmış oldu. Xarici ölkələrə tələbə göndərilməsi məqsədilə ixtisaslar seçilərkən, ölkə iqtisadiyyatının davamlı inkişaf strategiyası, iqtisadiyyatın rəqabət qabiliyyətliliyinin güclənməsi, kadrların idarə edilməsi, idarəetmə sistemində aparılan islahatların ehtiyaclarının ödənilməsi və s. müasir dövrün tələblərinə uyğunlaşdırılması kimi prioritet istiqamətlər nəzərə alınıb.

### "AZƏRBAYCAN GƏNCİ AZƏRBAYCAN DƏYƏRLƏRİ, ƏNƏNƏVİ DƏYƏRLƏR ƏSASINDA TƏRBİYƏ ALMALIDIR"

Ardıcıl olaraq təhsil sahəsində köklü islahatların aparılması məktəblilərin burada şəxsiyyət kimi formalaşmasına təsirini göstərməkdədir. "Gənclərin vətənpərvərlik ruhunda tərbiyə edilməsi xüsusi əhəmiyyət daşıyır, - deyən Cənab Prezident bildirib ki, bu gün bəzi hallarda bəzi xarici dairələr gənclərimizin beyinlərini zəhərləmək, onlara xalqımıza yad olan dəyərləri aşılamaq istəyirlər: "Buna qətiyyən yol verməməlk olmaz. Azərbaycan gənci Azərbaycan dəyərləri, ənənəvi dəyərlər əsasında tərbiyə almalıdır, Vətənə bağlı olmalıdır, Azərbaycan dəyərlərini hər şeydən üstün tutmalıdır, öz tarixini, ədəbiyyatını, ana dilini mükəmməl bilməlidir, fəxr etməlidir ki, Azərbaycan vətəndaşıdır. Ona görə bu məsələyə çox böyük diqqət verilməlidir. Mən gənclərimizin vətənpərvərlik ruhunda tərbiyə olunması ilə əlaqədar gedən prosesləri müsbət qiymətləndirirəm".

### "MÜASİR, VƏTƏNPƏRVƏR VƏ MƏNƏVİ CƏHƏTDƏN SAĞLAM YENİ NƏSİL ÖLKƏMİZİN GƏLƏCƏYİNİ MÜƏYYƏN EDƏCƏK"

Dövlətimiz gələcəyimiz olan gənc nəslin Vətənə məhəbbət, xalqa, elinə və obasına hörmət, soykökünə, adət-ənənələrinə sədaqət ruhunda tərbiyə olunmasına həmişə böyük məsuliyyətlə yanaşıb və buna həyati əhəmiyyətli məsələ kimi baxıb. Bu bir həqiqətdir ki, vətənpərvərlik insanda fədakarlıq, qəhrəmanlıq və məğlubedilməzlik hissləri yaradır, apardığı mübarizədə onda inam hissini gücləndirir. Vətənpərvərlik qəhrəmanlığın əsasını qoyan amildir. "Müasir, vətənpərvər və mənəvi cəhətdən sağlam yeni nəsil ölkəmizin gələcəyini müəyyən edəcək" - deyən dövlət başçısı çıxışı zamanı bildirib ki, onlar milli maraqları bizim qədər, heç nəyə baxmadan müdafiə etməlidir: "Heç bir təzyiqə, hədə-qorxuya, əsassız ittihamlara baxmayaraq, Vətən məhəbbəti və milli dəyərlər onlar üçün hər şeydən üstün olmalıdır. Amma buna nail olmaq üçün onlar milli ruhda tərbiyə almalıdırlar. Əgər qloballaşma adı ilə bizə yad olan və faktiki olaraq manqurtlaşma, eyniləşmə siyasəti idxal ediləcəksə, onda bizim gənclərimiz gələcəkdə ölkəmizin maraqlarını qoruya bilməyəcəklər. Bu, təkcə Təhsil Nazirliyinin vəzifəsi deyil, bu prinsiplər, ilk növbədə, ailələrdə, məktəbdə, uşaq bağçasında, ali məktəbdə, orduda və cəmiyyətdə üstünlük təşkil etməlidir".

Gənclərin milli-mənlik şüurunun formalaşması və onların vətənpərvər ruhda böyüməsi müstəqil dövlət quruculuğu yolunu seçən ölkəmizin prioritet istiqamətlərindəndir. Elm və təhsil, idman, iqtisadi, siyasi, mədəni və s. sahələrdə gənclərin uğur qazanması, qloballaşan dünyanın tələblərinə cavab verən gəncliyin yetişdirilməsi həmçinin ölkəmizin tanıdılması istiqamətində atılan mühüm addımlardandır. Ölkəmizdə gənclərlə iş sahəsində görülən tədbirlər bu istiqamətdə Azərbaycan gəncliyinin inkişafına təkan verir, onların cəmiyyətdə özlərini təsdiq etməsində böyük rol oynayır. Təhsilin bütün pillələrində, xüsusən də ümumtəhsil məktəblərində bu tərbiyə işinin həyata keçirilməsi üçün imkanlar genişdir. Təhsil ocaqlarında tədris olunan humanitar fənlər, xüsusən də ədəbiyyat, tarix, o cümlədən hərbi hazırlıq fənlərinin tədrisi təhsil alanları müvafiq biliklərlə təmin etməklə yanaşı, onların milli-mənlik şüurunun formalaşmasına, vətənpərvərlik ruhunda tərbiyəsinə müstəsna təsir göstərir. Müasir dövrümüzdə təhsil sahəsində islahatların ən mühüm mərhələsi yaşanılır. Təhsilin məzmunu və keyfiyyəti və təlimin təşkilinə verilən tələblərdə ciddi yeniləşmə və müasirləşdirmə prosesləri gedir. Təhsilin beynəlxalq standartlara uyğunlaşdırmaq üçün atılan addımlar, onu deməyə əsas verir ki, Prezident İlham Əliyevin "qara qızıl"ın insan kapitalına çevrilməsi çağırışı öz nəticəsini verir.

*Nəzakət ƏLƏDDİNQIZI*

# Ağ Ev: ABŞ-ın "Qadınların Qlobal İnkişafı və Rifahı Naminə" Fondu Azərbaycana 2 milyon dollar vəsait ayrılıb

ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyinin (USAID) Administratorunun müavini Bonni Qlik, Dövlət Departamentinin katibinin müavini Stiven Biequn və ABŞ Prezidentinin məsləhətçisi İvanka Tramp birgə bəyanatla çıxış edərək bildiriblər ki, Prezident Donald Tramp tərəfindən 2019-cu ilin fevralında təsis edilən və Ağ Evin rəhbərliyi altında həyata keçirilən "Qadınların Qlobal İnkişafı və Rifahı Naminə" Təşəbbüsü (W-GDP) çərçivəsində yeni fəaliyyətlər və tərəfdaşlıqlar üçün 122 milyon ABŞ dolları ayrılıb.



ABŞ-ın Azərbaycandakı səfirliyindən AZƏRTAC-a bildiriblər ki, W-GDP Fondundan ayrılmış 2 milyon ABŞ dolları dəyərində vəsait Azərbaycanda fəaliyyət göstərən USAID təşkilatına qadınlar tərəfindən idarə olunan, qadınlara yönəlmiş biznes və peşəkar assosiasiyaların imkanlarının artırılmasına yardım edəcək. Bu platformalar biznes sahəsində çalışan qadınlara öz sözlərini deməyə, habelə onlara təlim, resurslar və bazarlara kollektiv çıxışı əldə etməyə yardım göstərəcək. W-GDP Fondu sahibkar qadınlara bazarlara, maliyyə mənbələrinə və şəbəkələrə təlim və digər resursları əldə etməyə imkan yaradır. Qadınlar əldə etdikləri bu bacarıqlar sayəsində yeni biznesə başlamaq və onun inkişafı ilə bağlı çətinliklərin aradan qaldırılmaq imkanını əldə edəcəklər.

Prezidentin Məsləhətçisi İvanka Tramp qeyd edib: "W-GDP fondu qadınların iqtisadi zənginliyinin artmasına xidmət edən proqramların maliyyələşdirilməsi və inkişafı üçün yaradılıb. Biz ABŞ hökumətinin və özəl sektorun resurs və təcrübəsindən istifadə edərək, fəaliyyətlərin həyata keçirildiyi icmalarda davamlı və dərin səmərə verməsini təmin edirik".

Bu il Azərbaycan dünyanın 60- dan çox dövlətinə qatılaraq W-GDP təşəbbüsünün irəliləməsinə təkan verib. W-GDP təşəbbüsü qadınlar üçün həm iqtisadiyyatda iştirak, həm də rifahın və milli təhlükəsizliyin irəliləməsi sahəsində imkanları artırır. İqtisadi baxımdan zəngin imkanlara malik qadınlar öz ailə və icmalarına yenidən sərmayələr yatıraraq qlobal sülh və sabitliyə təkan verən iqtisadi artıma töhfə verirlər.

Qeyd edək ki, 2019-cu ilin fevralında Ağ Ev qadınların iqtisadi imkanlarını gücləndirməsinə xidmət edən və Birləşmiş Ştatların hökuməti tərəfindən tam həyata keçirilən ilk layihəsini - Qadınların Qlobal İnkişafı və Rifahı Naminə (W-GDP) Təşəbbüsünü təsis edib. Qadınların iş yerlərində inkişafı, sahibkar qadınların rifahının artması və onların iqtisadiyyatda rolunun gücləndirilməsi kimi üç əsas istiqamətə yönəlmiş W-GDP Təşəbbüsünün məqsədi 2025-ci ildə inkişaf edən dövlətlərdə yaşayan 50 milyon qadını əhatə etməkdən ibarətdir. W-GDP Təşəbbüsü yeni innovasiya fonduna təkan verərək, sözügedən üç istiqamətə yönəlmiş özəl-ictimai tərəfdaşlığı inkişaf etdirir. Həyata keçirildiyi ilk ildə W-GDP Təşəbbüsü dünyanın müxtəlif dövlətlərində yaşayan 12 milyon qadını əhatə edib.

# Türkiyəli deputat: "Paşinyan hökuməti aciz vəziyyətdədir"



İşğalçı Ermənistanın rəhbərliyi və rəsmi İrəvan tərəfindən mütəmadi olaraq işğalçılıq niyyətini açıq şəkildə ortaya qoyan açıqlamalar, bəyanatlar verilir. Bu dəfə Ermənistan Xarici İşlər Nazirliyi Şərqi Aralıq dənizi ilə bağlı açıqlama verərək Türkiyəyə qarşı ittihamlarla çıxış edib. Regionda hədsiz dərəcədə anlaşılmaz siyasət yeridən işğalçı ölkənin addımları, rəsmi İrəvanın absurd bəyanatı Azərbaycan Televiziyasının (AzTV) "Hədəf" verilişində müzakirə olunub. Proqramın qonaqları, Milli Məclisin deputatı Arzu Nağıyev və Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin İdarə Heyətinin üzvü Gülşən Paşayeva düşmən ölkənin siyasi yanaşmalarını təhlil ediblər. Ekspertlər qeyd ediblər ki, Ermənistan bu gün beynəlxalq aləmdə küncə sıxılmış vəziyyətdədir. Bu səbəbdən də işğalçı dövlət anormal, beynəlxalq hüquqla uzlaşmayan siyasət aparmağa cəhd edir. Vurğulanıb ki, Ermənistanın küçədən hakimiyyətə gələn rəhbərliyi siyasi səriştəsiz olduğuna görə, məsuliyyətsiz, bölgəni çaxnaşmaya aparan bəyanatlar verir.

"Hədəf"in efirinə "Skayp" vasitəsilə qoşulan Türkiyə Böyük Millət Məclisinin üzvü, Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Şamil Ayrım da fikirlərini bölüşüb. Rəsmi İrəvanın məlum bəyanatı ilə bağlı bildirib ki, Ermənistan XİN başçısının Şərqi Aralıq dənizi ilə bağlı dedikləri Türkiyəyə qarşı xain planlardan qaynaqlanır. Dostluq qrupunun rəhbəri vurğulayıb ki, Paşinyan hökuməti aciz vəziyyətdədir. O hakimiyyətə gələn zaman erməni xalqına verdiyi sözlərin heç birini yerinə yetirə bilmədi. İndiki halda isə daxildəki gərginliyi yayındırmaq üçün müxtəlif absurd üsullara əl atır.

# Sahibkarlara dövlət dəstəyinin Azərbaycan modeli



### İlham Əliyev: "Sahibkarlara dəstək bundan sonra daha da şəffaf və mütəşəkkil qaydada göstəriləcəkdir"

Bu gün dünyanı ağuşuna alan pandemiya dövründə digər sahələr kimi Azərbaycan sahibkarı da tarixi sınaq qarşısındadırlar. Lakin Azərbacan dövləti həmişə bütün çətinliklərdən uğurla çıxdığı kimi, bu çətin gündə də bütün sahələrə, o cümlədən sahibkarlara dəstək göstərmək üçün uğurlu və düşünülmüş addımlar atır. Belə ki, pandemiyanın il ilk günündən, hətta dünyanın bütün inkişaf etmiş ölkələrində iri şirkətlər öz bizneslərini qorumaq, xərcləri minimuma endirməkdən ötrü kütləvi şəkildə işçiləri ixtisar etdiyi halda, Azərbaycan Prezidenti İlham Əliyev sahibkarlara öz işçilərini ixtisar etməməklə bağlı çağırış etdi. Çünki belə bir şəraitdə Azərbaycan sahibkarlarının öz işçilərinə qarşı anlayışlı davranması əsas məsələlərdən biridir. Eyni zamanda, sahibkarlar dövlət başçısının digər humanist çağırışına da biganə qalmayaraq Koronavirusla Mübarizəyə Dəstək Fonduna da əhəmiyyətli məbləğlərdə ianələr edirlər. Göründüyü kimi, hökumət sağlam, dayanıqlı və rəqabətqabiliyyətli bir iqtisadiyyatın formalaşmasına çalışır və bu gün də bu yoldadır.

"Əsl siyasət konkret, real iş görməkdən ibarətdir", deyən dövlət başçısının ötən illərdə qəbul etdiyi fundamental qərarlar, imzaladığı sərəncamlar Azərbaycan Prezidentinin daim xalqın mənafeyindən çıxış etdiyini, habelə, verdiyi vədlərin sırf əməli fəaliyyətə, praqmatizmə söykəndiyini, gerçəkliyə adekvat olduğunu göstərmişdir. Çünki bugünkü Azərbaycan vətəndaşı həyata başqa nəzərlərlə baxır, özünə və ölkəsinin bundan da daha böyük uğurlar əldə edəcəyinə inanır. Bu inam, hər il görülən daha böyük uğurların nəticələrini gördükcə, sabaha daha böyük bağlılıqla inanır. Bütün bunlar, bir daha sübut edir ki, Azərbaycan dövləti və Prezidenti daim onların yanındadır və keçirilən müşavirələrdə də məmurları xalqla bir olmağa, xalqın dərd-səri ilə şərik olmağı tələb edir. Məmurlar da bu tələbə tam işləri ilə cavab verməlidir. Çünki Prezident İlham Əliyevin 17 illik Prezidentlik fəaliyyətində həyata keçirdiyi sosial-iqtisadi və siyasi islahatlar müasir Azərbaycanın müstəqilliyini daha da möhkəmləndirib, regional gücünü və qlobal əhəmiyyətini kifayət qədər artırmış olub.

### Dövlət sahibkarlara, sahibkarlar da dövlətə arxalanır

"Sahibkarlara dəstək bundan sonra daha da şəffaf və mütəşəkkil qaydada göstəriləcəkdir. Sahibkarlar tərəfindən də təqdim edilən layihələr gərək real bazarı nəzərə alsın, həm daxili bazarı, həm xarici bazarı. Çünki burada da boşluqlar var. Baxmayaraq ki, dövlət tərəfindən sahibkarlara güzəştli kreditlər, eyni zamanda, metodiki tövsiyələr verilir, bəzi hallarda təqdim edilən layihələr tam təhlil edilmir.



Ona görə bu məsələyə də mütləq baxmaq lazımdır". Bu fikirləri Prezident İlham Əliyev avqustun 6-da koronavirusla mübarizə sahəsində görülən tədbirlər və sosial-iqtisadi vəziyyətlə bağlı videoformatda müşavirə zamanı bildirib.

Bəli, bu gün pandemiya zamanında dövlət öz dəstəyini göstərirsə, sahibkarlar da, ümumiyyətlə hər bir qurum üzərinə düşən işə məsuliyyətlə yanaşmalı, ölkənin iqtisadiyyatının daha da güclənməsinə çalışmalıdır. Çünki ölkədə sahibkarlığın daha da inkişafı üçün biznes mühitinin daim yaxşılaşdırılması, müvafiq qanunvericilik bazasının təkmilləşdirilməsi, yerli və xarici investisiyaların, müasir texnologiyaların, idarəetmə təcrübəsinin cəlb edilməsi və bu yolla yüksək keyfiyyətli, rəqabətqabiliyyətli məhsulların istehsal edilməsi Prezident İlham Əliyevin müəyyən etdiyi iqtisadi inkişaf strategiyasının prioritetlərindəndir. Eyni zamanda, sahibkarlığa dövlət himayəsinin sistemli şəkildə həyata keçirilməsi, sahibkarlara dəstək tədbirlərinin səmərəsinin yüksəldilməsi bu sahədə mühüm nailiyyətlərin əldə edilməsinə səbəb olub.

### "Əgər görsələr ki, sahibkarlar bu qaydaları pozur, onda onlar gərək cəzalandırılsın. Bu, birmənalıdır"

Bəli, ölkə Prezidenti daima sahibkarlara dəstək olub. Lakin dövlət başçısı bütün görüşlərdə və müşavirələrdə dönə-dönə vurğulayıb ki, qanunları və qaydaları pozanlar birmənalı şəkildə cəzalandırılmalıdır. Elə avqustun 6-da Prezident İlham Əliyev koronavirusla mübarizə sahəsində görülən tədbirlər və sosial-iqtisadi vəziyyətlə bağlı videoformatda keçirilən müşavirə də bunu bir daha vurğulayıb: "Ona görə indiki şəraitdə biz, ümumiyyətlə, rəqəmsallaşmaya daha böyük fikir verməliyik. Həm dövlət, həm də özəl sektor tərəfindən göstərilən xidmətləri də bu ümumi sistemə inteqrasiya etməliyik. Hesab edirəm ki, bu məsələ də gərək çox ciddi nəzərə alınsın və onlayn video müşahidə sistemləri təmin edilməlidir. Müvafiq dövlət qurumlarının imkanı olmalıdır ki, onlar bu video müşahidəni aparsınlar. Əgər görsələr ki, sahibkarlar bu qaydaları pozur, onda onlar gərək cəzalandırılsın. Bu, birmənalıdır".

Bu yerdə bir məqamı da xatırlatmaq istərdim. Belə ki, ölkə başçısı İlham Əliyevin iqtisadiyyat naziri Mikayıl Cabbarovu qəbul edərkən də bu məslənin üzərində xüsusi dayanması da deyilənlərin təsdiqi sayıla bilər. Həmin görüşdə də dövlət başçısı bildirmişdi ki, "sahibkarlıq fəaliyyətinə mane olan məmurlar sərt şəkildə cəzalandırılacaq. Cəzalandırma yalnız işdən çıxarılmaqla məhdudlaşmayacaq. Bəzi məmurlar hətta həbs oluna bilər: "Biz çox yaxşı bilirik ki, inkişaf etmiş ölkələrdə ümumi daxili məhsulda əsas rolu kiçik və orta sahibkarlar oynayır. Bizdə isə hələ ki, belə deyil. Biz də çalışmalıyıq elə bir şərait yaradaq ki, hər bir istedadlı insan, biznesə meyli, həvəsi olan hər bir insan bizneslə məşğul ola bilsin, məmur təzyiqindən, müdaxiləsindən azad olsun".

Göründüyü kimi ölkə başçısı sahibkarlıq fəaliyyətinə müdaxilə edən, manеə törədən məmurların cəzalandırılacağını açıq mətnlə bəyan edirsə, deməli sahibkarlar da bunun müqabilində işlərinədə məsuliyyət hiss etməlidirlər: "Sahibkarlara dəstək bundan sonra daha da şəffaf və mütəşəkkil qaydada göstəriləcəkdir. Sahibkarlar tərəfindən də təqdim edilən layihələr gərək real bazarı nəzərə alsın, həm daxili bazarı, həm xarici bazarı. Çünki burada da boşluqlar var. Baxmayaraq ki, dövlət tərəfindən sahibkarlara güzəştli kreditlər, eyni zamanda, metodiki tövsiyələr verilir, bəzi hallarda təqdim edilən layihələr tam təhlil edilmir. Ona görə bu məsələyə də mütləq baxmaq lazımdır".

### Pandemiya dövründə özəl sektor öz fəaliyyətini yeni həyat tərzinə uyğunlaşdırmalıdır

Məhz dövlət başçısı İlham Əliyevin keçirdiyi müşavirənin səhərisi, yeni avqustun 7-də İqtisadiyyat naziri Mikayıl Cabbarov sahibkarlarla keçirilən onlayn görüşdə qeyd edib ki, 2020-ci il Azərbaycan üçün uğurlu başlasa da, pandemiya bütün ölkələrdə olduğu kimi, milli iqtisadiyyatı da yeni çağırışlarla üz-üzə qoyub, məcburi məhdudlaşdırmalar iqtisadi fəallığın zəifləməsinə, biznesin maliyyə itkiləri ilə qarşılaşmasına gətirib çıxarıb. Nazir vurğulayıb ki, pandemiyanın milli iqtisadiyyata, məşğulluğa və sahibkarlıq subyektlərinə mənfi təsirlərinin minimallaşdırılması üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dövlət orqanları qarşısında çox ciddi vəzifələr qoyub. Dövlət başçısının rəhbərliyi ilə həyata keçirilən siyasətin mərkəzində insan amilinin dayandığını vurğulayan nazir sıx dövlət-vətəndaş həmrəyliyinə söykənərək insanların sağlamlığının qorunması istiqamətində həyata keçirilən tədbirlərin önəmini diqqətə çatdırıb. Pandemiyanın iqtisadiyyata neqativ təsirləri barədə məlumat verən İqtisadiyyat naziri 2020-ci ilin birinci yarımilliyi üzrə ÜDM-də azalmanın qeydə alındığını, əksər iqtisadi sektorlarda azalma müşahidə olunduğunu qeyd edib. Vurğulanıb ki, iqtisadiyyata təhdidlərin qarşısının alınması istiqamətində qeyri-neft sektorunda iqtisadi fəallığın canlandırılması, iş yerlərinin qorunması baxımından stimullaşdırıcı effektli layihələrin və tədbirlərin maliyyələşdirilməsi, investisiya yönümlü kreditləşdirmə, özəl investisiya qoyuluşunun təşviq edilməsi, tikinti-məşğulluq və digər istiqamətlərdə təkanverici tədbirlərin görülməsi qarşıda duran əsas hədəflərdəndir.

Özəl sektorun iqtisadiyyatın aparıcı qüvvəsi olduğunu vurğulayan Mikayıl Cabbarov, dövlət başçısının tapşırığına uyğun olaraq, Nazirlər Kabinetinin sahibkarlıq subyektlərinə yeni maliyyə dəstəyinin göstərilməsi barədə qərar qəbul etdiyini bildirib. Qərara əsasən, mövcud şəraitin sahibkarlığa mənfi təsirlərini minimallaşdırmaq və məşğulluğun qorunmasına dəstək məqsədilə pandemiyadan zərər çəkmiş sahələrdə çalışan vergi ödəyicilərinə işçi sayına münasibətdə bir aylıq əməkhaqqı fondu həcmində, fərdi (mikro) sahibkarların isə daha çox ehtiyacı olan hissəsinə təkrarən 250 manat həcmində maliyyə dəstəyi göstəriləcəkdir. Bunlarla yanaşı, Nazirlər Kabinetinin qərarı ilə 2020-ci il 1 aprel tarixindən 2021-ci il 1 yanvar tarixinədək sahibkarlar dövlət və bələdiyyə torpaq sahələrinin, hüquqi şəxslər və fərdi sahibkarlar (o cümlədən həmin kateqoriyadan olan sənaye məhəllələrinin iştirakçıları) dövlət əmlakının icarə haqqından azad edilir.

İqtisadiyyat naziri, həmçinin, sahibkarlıq subyektlərinin maliyyə resurslarına çıxış imkanlarının artırılması, pandemiyadan zərər çəkmiş sahələrə dövlət dəstəyinin gücləndirilməsi məqsədilə sahibkarlığın maliyyələşdirilməsi alətlərinin genişləndirildiyini diqqətə çatdırıb. Qeyd olunub ki, sahibkarların dövlət zəmanətli krediti asan və şəffaf formada əldə etməsi üçün yaradılmış Elektron Kredit Platforması vasitəsilə artıq bir ay ərzində 12 milyon manatdan çox kredit verilməsi təsdiq edilib.

Bildirilib ki, hazırkı şəraitdə cəmiyyət, eləcə də sahibkarlar yaranmış yeni tələblərə uyğunlaşmalıdır. Pandemiyanın nə zaman bitəcəyi məlum deyil. Cəmiyyət yeni həyat tərzinə hazır olmalı, sahibkarlar da biznes fəaliyyətini yaranmış şəraitə uyğunlaşdırmalıdırlar. Qapalı məkanlarda maska taxılmalı, obyektlər mütəmadi olaraq dezinfeksiya edilməli, antiseptik vasitələrdən istifadə olunmalı, işçi heyətin maska və əlcəkdən istifadəsi təmin edilməli, vətəndaşların maskasız obyektlərə daxil olmasının və sıxlığın qarşısı alınmalı, fiziki məsafə qorunmalıdır. Yeni həyat tərzinin rəqəmsal həllərin tətbiqini tələb etdiyini deyən İqtisadiyyat naziri məsafəli xidmətin imkanlarının genişləndirilməsinin vacibliyini vurğulayıb və bildirib ki, ticarət və xidmət obyektləri yeni qaydalara nə qədər tez vərdiş etsələr, bu onların biznesi üçün bir o qədər səmərəli olar.

Göründüyü kimi, Prezident İlham Əliyevin qəbul etdiyi qərarlar dövlət başçısnın hansısa çətin vəziyyətdə sahibkarların ən böyük hamisi olduğunu bir daha təsdiqləmiş oldu. İndi hər kəs şahiddir ki, dövlət başçısı beynəlxalq müstəvidə baş vermiş problemin yarada biləcəyi fəsadların neytrallaşdırılması istiqamətində zəruri olan bütün addımları atır. Yetər ki, hər bir kəs özündə məsuliyyət hiss etsin və dövlətə dəstək olsun, belə qarşısında həmrəy olaq, bütün sıxıntılarımız aradan qalxacaq. Çünki arxamızda dövlət var!

Bəli, bu, həqiqətən də, belədir! Bu gün Cənab Prezidentin hər zaman olduğu kimi sözü ilə əməli tam üst-üstə düşür. Bir sözlə, bütün bunlar bir daha təsdiq edir ki, Azərbaycan dövləti daim öz vətəndaşına qayğı ilə yanaşır, onun rifahının yüksəldilməsini, sosial problemlərinin həllini prioritet vəzifə kimi görür və bu istiqamətdə məqsədyönlü siyasət həyata keçirir.

**RƏFİQƏ KAMALQIZI**

# XİN: “Azərbaycan Türkiyənin bütün addımlarını qətiyyətlə dəstəkləyir”



Azərbaycan tərəfi tarixən Aralıq dənizi bölgəsinin inkişafı və tərəqqisində mühüm rol oynamış qardaş Türkiyənin bölgədə sülh və sabitliyin təmin edilməsinə yönəlmiş beynəlxalq hüquqa söykənən bütün addımlarını qətiyyətlə dəstəkləyir və mövcud gərginliyin tezliklə həllini tapacağına ümidini ifadə edir. Bu barədə SİA-ya Xarici İşlər Nazirliyinin (XİN) Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva Türkiyənin Şərqi Aralıq dənizində fəaliyyəti və bu xüsusda Ermənistan XİN-in açıqlaması barədə sualı cavablandırarkən deyib.

L.Abdullayeva deyib: “Bu xüsusda, üçüncü tərəflərin vəziyyətdən özlərinin bölgə dövlətlərinə olan ədavət və qərəzli yanaşması üçün fürsət kimi istifadə etməsi cəhdləri qətiyyətlə rədd edilməlidir. Ermənistan tərəfinin Türkiyəyə qarşı əsassız ittihamlar ehtiva edən mövqeyi və bəyanatları Aralıq dənizi hövzəsində müşahidə olunan həssas vəziyyətdən özünün dar siyasi maraqları üçün sui-istifadə etmək cəhdi kimi pislənilməli və rədd edilməlidir”.

# Müdafiə Nazirliyi:”Sarqsyan bəraət qazanmaq üçün cəfəng fikirlər səsləndirir”



Dünən keçirilən mətbuat konfransında çıxış edən Ermənistanın sabiq prezidenti Serj Sarqsyan 2016-cı ilin aprel döyüşləri barədə danışarkən guya Azərbaycan Ordusunun tərkibində Türkiyə və İsraildən hərbi təlimatçıların olması haqqında sərsəm fikir səsləndirib. Bu barədə SİA-ya Müdafiə Nazirliyindən bildiriblər.

Bəllidir ki, məhz Ermənistan silahlı qüvvələrində hərbi xidmətə çağırışçı və səfərbərlik ehtiyatlarının çatışmazlığı səbəbindən xarici ölkələrdən gətirilən muzdluların istifadə edilməsi praktikası geniş tətbiq olunur.

Aprel döyüşlərindən aldığı zərbənin təsirindən 4 il sonra qismən özünə gələn S.Sarqsyanın bəraət qazanmaq üçün bu cür cəfəng fikirlər səsləndirməsi heç də təəccüblü deyil. Belə ki, bir tərəfdən Ermənistan ordusunun həmin döyüşlərdəki məğlubiyyətinin fəsadları, digər tərəfdən isə parlament komissiyasının bu uğursuzluqların səbəb və səbəbkarlarını müəyyən edərək onlara ağır cəza verməK çağırışı S.Sarqsyanı belə bir addım atmağa məcbur edib.

Bildiririk ki, bu gün Azərbaycan Ordusu ölkəmizdə və dünyanın ən nüfuzlu hərbi təhsil müəssisələrində ixtisaslaşmış peşəkar hərbi qulluqçularla komplektləşdirilmiş və arsenalında ən müasir silah-sursat, hərbi texnikası olan ordudur. S.Sarqsyanın səsləndirdiyi yalan və gülünc fikirlər onun öz tərəfdaşları, erməni ictimaiyyəti qarşısında itən nüfuzunu bərpa etməyə, xüsusilə də parlament komissiyasının qəbul edəcəyi qərarlara təsir etməyə yönələn uğursuz cəhddir. Erməni xalqı bilməlidir ki, Ermənistan ordusunun Aprel döyüşlərindəki alçaldıcı məğlubiyyətinin günahkarı məhz S.Sarqsyan və onun hərbi-siyasi rejimi olub. Bir daha bildiririk ki, Ermənistan-Azərbaycan dövlət sərhədinin Tovuz rayonu istiqamətində Ermənistanın hazırkı hakimiyyətinin törətdiyi hərbi avantüranın qarşısını qətiyyətlə alan Azərbaycan Ordusu bundan sonra da düşmənin istənilən təxribatlarının qarşısını almağa qadirdir.

# Pandemiyadan zərər çəkənlərə maliyyə dəstəyi göstərilir

***İkinci maliyyə dəstəyi proqramı çərçivəsində muzdlu işçilərin əməkhaqqının müəyyən hissəsinin ödənilməsinə başlanılıb. İqtisadiyyat Nazirliyindən SİA-ya verilən məlumata görə, Azərbaycan Respublikası Prezidentinin tapşırığına və Nazirlər Kabinetinin müvafiq qərarına əsasən, İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti tərəfindən pandemiyadan zərər çəkmiş sahələrdə çalışan vergi ödəyicilərinin muzdlu işçilərinə ikinci maliyyə dəstəyi proqramı çərçivəsində vəsait köçürülməsinə başlanılıb.***



Maliyyə dəstəyi pandemiyadan zərər çəkmiş sahələrdə çalışan, birinci maliyyə dəstəyi proqramı çərçivəsində vəsait almış və dövlət başçısının çağırışına cavab olaraq, işçi saylarında ciddi azalmalara yol verməmiş vergi ödəyicilərinə 1 iyul 2020-ci il tarixinə olan işçi sayı əsas götürülməklə bir aylıq əməkhaqqı fondu həcmində göstərilir və avqust və sentyabr aylarını əhatə etməklə 2 mərhələdə bərabər hissələrlə ödəniləcək.

Məlumat verildiyi kimi, maliyyə dəstəyinin ikinci mərhələsi çərçivəsində vergi ödəyicilərinin yenidən müraciət etmələrinə ehtiyac yoxdur. Avqustun 19-u tarixinə 2-ci mərhələ çərçivəsində 228.175 muzdlu işçini əhatə edən 22.603 vergi ödəyicisinin bank hesablarına ilkin olaraq 50,38 mln. manat köçürülüb. Maliyyə dəstəyi proqramının ikinci mərhələsində ödənişlə əhatə olunmuş muzdlu işçilərin sayı birinci mərhələdə vəsait almış muzdlu işçilərin sayından 12.177 nəfər çoxdur ki, bu da şəffaflaşdırma nəticəsində əmək müqavilələri bağlamış işçi saylarının artması ilə əlaqədardır.

Bununla yanaşı, aprel-may-iyun ayları ərzində işçilərinin hamısını (1666 nəfər) ixtisar etmiş 553 vergi ödəyicisinə və işçilərinin sayında ciddi azalmalara yol vermiş 374 vergi ödəyicisinə maliyyə dəstəyi göstərilməsindən imtina edilib. İndiyədək maliyyə dəstəyi proqramları çərçivəsində 107.191 fərdi (mikro) sahibkara 76 mln. manat məbləğində birdəfəlik maliyyə dəstəyi göstərilib. Pandemiyadan zərər çəkmiş sahələrdə fəaliyyət göstərən sahibkarlara və iqtisadi artıma dövlət dəstəyi mexanizmləri barədə qanunvericilik aktları, qərarlar, videotəlimatlar, ən çox verilən suallar və onların cavabları, maliyyə dəstəyi almış vergi ödəyicilərinin mütəmadi olaraq yenilənən siyahısı, eləcə də digər faydalı məlumatlarla aşağıdakı linklərdən istifadə etməklə tanış ola bilərsiniz. Ətraflı: Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi: https://bit.ly/3c7VAAt, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti: https://bit.ly/2VlICZ7

# Səfir: “ABŞ etibarlı enerji təchizatçısı rolunu inkişaf etdirən Azərbaycana dəstək verməyə hazırdır”



Amerika Birləşmiş Ştatları (ABŞ) dünyada etibarlı enerji təchizatçısı rolunu inkişaf etdirən Azərbaycana öz dəstəyini verməyə hazırdır. AZƏRTAC xəbər verir ki, bu sözləri ABŞ-ın ölkəmizdəki səfiri Örl Litzenberger “2020-ci ilin Regional Enerji Təhlükəsizliyinə dair Simpoziumu”nda deyib. Onun sözlərinə görə, enerji sektorunun inkişafı Azərbaycanın transformasiyasını təmin edib və dövlətin liderləri və siyasətçiləri mürəkkəb coğrafi və enerji mühitində fəaliyyət göstərərək hazırkı uğuru əldə ediblər.

# Azərbaycanda 146 nəfər koronavirusa yoluxdu, 162 nəfər sağaldı




Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 146 yeni yoluxma faktı qeydə alınıb, 162 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb. Nazirlər Kabineti yanında Operativ Qərargahdan SİA-ya verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 1 nəfər vəfat edib.

# Azərbaycanda Həcc ziyarəti ilə bağlı ödənişlərin qaytarılması yekunlaşır



Bu il koronavirus səbəbindən Həcc ziyarəti ləğv olunduqdan sonra ziyarət üçün ödəniş edənlərin xeyli hissəsinin vəsaiti artıq özünə qaytarılıb. Bu barədə SİA-ya Qafqaz Müsəlmanları İdarəsindən məlumat verilib. Bildirilib ki, ödəniş edən şəxslərin böyük əksəriyyəti artıq öz vəsaitini geri götürüb. Təqribən 10 nəfərə yaxın qalıb ki, onlar da ödənişlərini bu günlərdə alacaqlar. Bu il Həcc ziyarətinin ləğv olunması ilə bağlı Səudiyyə Ərəbistanından rəsmi bildiriş gəlib. Bu səbəbdən Azərbaycandan Həcc ziyarətinə sənəd qəbulu da ləğv edilib. Bu il 250-ə qədər şəxs Həcc ziyarətinə getmək üçün müraciət etmişdi və onlardan 150 nəfərə qədəri ödənişi etmişdi. Ümumilikdə Həcc ziyarətinə sənəd qəbulu yanvarın 27-dən martın 24-ə qədər davam edib. Ziyarətin qiyməti 4 490 dollar olub. Ötən il isə bu məbləğ 4 285 dollar olub. Builki qiymət artımı hotel xidmətlərinin bahalaşması və viza rüsumunun tətbiq edilməsi ilə bağlı idi.

# Azərbaycan ilə Çin arasında əməkdaşlıq məsələləri müzakirə olunub

***Avqustun 19-da Azərbaycan Respublikasının Xarici İşlər naziri Ceyhun Bayramov Çin Xalq Respublikasının ölkəmizdəki səfiri xanım Qo Minlə görüşüb.***



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, görüşdə nazir Ceyhun Bayramov Azərbaycan ilə Çin arasında qarşılıqlı anlaşmaya və etimada əsaslanan ən yüksəksəviyyəli siyasi dialoqun mövcud olduğunu qeyd edib. Ölkələrimiz arasında qarşılıqlı əməkdaşlıq əlaqələrindən bəhs edən nazir Azərbaycan ilə Çin münasibətlərinin siyasi, iqtisadi-ticari, humanitar, səhiyyə və təhsil sahələrində inkişafından məmnunluğunu ifadə edib.

Səfir Qo Min Çinin Xarici İşlər naziri Vanq Yinin səmimi salamlarını və təbriklərini nazir Ceyhun Bayramova çatdırıb.

Görüşdə tərəflər ikitərəfli və çoxtərəfli formatlarda, beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın daha da genişləndirilməsi üzrə fikir mübadiləsi aparıblar.

Ölkə rəhbərləri səviyyəsində səfərlərin Azərbaycan ilə Çin arasında əlaqələrin inkişafına təkan verdiyi qeyd olunub.

Tərəflərin dövlətlərin suverenliyi və ərazi bütövlüyünə hörmətlə bağlı prinsipial mövqeyi vurğulanıb.

Ermənistan-Azərbaycan Dağlıq-Qarabağ münaqişəsi barədə qarşı tərəfə məlumat verən nazir xüsusilə bu il iyulun 12-də Azərbaycan-Ermənistan sərhədinin Tovuz rayonu istiqamətində Ermənistan silahlı qüvvələri tərəfindən əvvəlcədən planlaşdırılan təxribat barədə danışıb. Ermənistanın bu növbəti təxribatının ölkənin hərbi-siyasi məqsədlərinə xidmət etdiyini və münaqişənin həlli üzrə substantiv danışıqlara mane olmaq məqsədi güddüyünü bildirib.

Görüşdə səfir Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünə hörmətin ifadə olunması ilə bağlı Çinin qəti mövqeyini diqqətə çatdırıb.

Xanım səfir Qoşulmama Hərəkatına sədrliyi dövründə ölkəmizin fəaliyyətinin, xüsusilə pandemiya ilə əlaqədar Azərbaycan Prezidentinin irəli sürdüyü bir sıra qlobal təşəbbüslərin Çin tərəfindən yüksək qiymətləndirildiyini vurğulayıb.

Tərəflər, habelə qlobal səviyyədə COVID-19 pandemiyası ilə mübarizənin aparıldığı dövrdə beynəlxalq əməkdaşlığın və həmrəyliyin əhəmiyyətini qeyd ediblər. Çin tərəfindən göstərilən texniki dəstəyi vurğulayan nazir bunun Azərbaycan və Çin xalqları arasında dostluq ənənələrinə sadiqliyin bariz nümunəsi olduğunu qeyd edib, bu çətin günlərdə göstərilən dəstəyə və həmrəyliyə görə minnətdarlığını bildirib. Görüşdə, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər üzrə müzakirələr aparılıb.

# “Türkiyə dünya miqyasında Azərbaycanın ən böyük dəstəkçisidir”

Milli Məclisin deputatı Könül Nurullayeva Türkiyə portalına Azərbaycan-Türkiyə münasibətlərinin inkişafı ilə bağlı açıqlama verib. AZƏRTAC xəbər verir ki, deputat www.sabah.com.tr portalına açıqlamasında əsas diqqəti Türkiyə ilə Azərbaycan arasında əlaqələrin yüksələn xətt üzrə inkişafına yönəldib. Azərbaycanın Xarici İşlər naziri Ceyhun Bayramovun ilk rəsmi səfərini məhz qardaş Türkiyəyə etməsinin əhəmiyyətini vurğulayan K.Nurullayeva deyib: “Dövlət başçılarımızın da hər zaman qeyd etdikləri kimi, Azərbaycanla Türkiyə arasında hər hansı bir problem ola bilməz. Biz, eyni zamanda, bütün beynəlxalq təşkilatlar çərçivəsində də vahid mövqedən çıxış edirik. Azərbaycan Prezidenti İlham Əliyevin də hər zaman vurğuladığı kimi, biz BMT, ATƏT, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Şurası və digər təşkilatlarda fəal işbirliyi aparmaqla bir-birimizin gücünü artırırıq. Azərbaycanın Xarici işlər naziri Ceyhun Bayramovun ilk rəsmi səfərini qardaş ölkəyə etməsinə gəlincə, bu, yüksək səviyyəli münasibətlərin növbəti nümunəsidir. Nazirlər arasında baş tutan görüşdə tərəflər münasibətlərin daha da genişləndirilməsi perspektivlərini müzakirə etdilər. Həm Bakı, həm də Ankara mövcud əməkdaşlığın ikitərəfli və çoxtərəfli formatlarda bundan sonra da davam etdirilməsində maraqlıdır”.


SABAH ≡ SON DAKİKA GÜNDEM EKONOMİ YAŞAM SAĞLIK DÜN

**Azerbaycan'dan Türkiye açıklaması! “Türkiye, Azerbaycan'ın dünyadaki en büyük destekçisidir"**

**Azerbaycan Dışişleri Bakanı Ceyhun Bayramov'un ilk resmi dış ziyaretini Türkiye'ye yapmasının anlamlı olduğunu vurgulayan Azerbaycan Milli Meclisi Milletvekili Gönül Nurullayeva, iki ülke ilişkilerinde gelinen son noktayı değerlendirdi. Nurullayeva, ziyarette tarafların gündemin siyasi, ekonomik, ticari, insani, kültürel, eğitim ve diğer alanlar dahil olmak üzere pek çok alanda ilişkilerin gelişmesinden duydukları memnuniyeti dile getirdi.**

Giriş Tarihi: 13.8.2020 12:35 ABONE OL Google News

Azerbaycan Dışişleri Bakanı Ceyhun Bayramov'un ilk resmi dış ziyaretini Türkiye'ye yapmasının anlamlı olduğunu vurgulayan Azerbaycan Milli Meclisi Milletvekili Gönül Nurullayeva, iki ülke ilişkilerinde gelinen son noktayı değerlendirdi.

Nurullayeva, Türkiye ve Azerbaycan'ın siyasi, askeri, ekonomik, ticari, kültürel - kısacası, tüm alanlarda her zaman dayanışma gösterdiğini belirterek "Devlet başkanlarımızın her zaman

Deputat, həmçinin qardaş ölkənin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ədalətli mövqeyinə də toxunub. Bildirib ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı Türkiyənin mövqeyi hər zaman prinsipial və ədalətli olub. Nazirlərimiz arasında aparılan müzakirələrdə də qeyd olundu ki, beynəlxalq birliyin, xüsusilə də ATƏT-in Minsk qrupu həmsədrlərinin ciddi səy göstərmələri tələb olunur: “Bu, həm də Minsk qrupunun üzvü kimi Türkiyənin qətiyyətinin göstəricisidir. Türkiyənin Xarici İşlər naziri Mövlud Çavuşoğlu azərbaycanlı həmkarı ilə görüşdə növbəti dəfə ölkəmizə dəstəyini ifadə etdi. O dedi ki, hər nə olursa olsun, Türkiyə Azərbaycanın yanındadır. M.Çavuşoğlunun “Qardaş Azərbaycan hansı həll yoluna qərar verəcəksə, onun yanında olacağıq” söyləməsi bir daha ölkələrimiz arasında siyasi sahədə həmrəyliyin ən yüksək səviyyədə davam etdiyini göstərir”.

K.Nurullayeva diqqətə çatdırıb ki, Azərbaycan və Türkiyə rəsmiləri həmrəy olduqlarını bu günə qədər davamlı surətdə göstəriblər, beynəlxalq qurumlarda və təşkilatlarda bu həmrəylik davam etdirilir. Bu gün qardaş Türkiyə dünya miqyasında Azərbaycana ən böyük dəstək verən ölkədir. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan başda olmaqla qardaş ölkənin rəsmiləri bütün platformalarda münaqişənin həlli ilə bağlı Azərbaycana dəstək ifadə edirlər.

“Hazırda bölgədə gedən bütün proseslərdə Azərbaycan dövləti və Azərbaycan xalqı da birmənalı şəkildə Türkiyə dövlətinin və xalqının yanındadır. Prezident İlham Əliyevin də bəyan etdiyi kimi, elə bir məsələ olmayıb və olmayacaq ki, Azərbaycan Türkiyəyə öz dəstəyini göstərməsin. Çünki Azərbaycan-Türkiyə birliyi əbədidir və biz öz gələcəyimizi bu möhkəm təməl üzərində inkişaf etdiririk”, - deyə Könül Nurullayeva açıqlamasında bildirib.

# Tibb işçilərinə əlavə maaşların verilmə müddəti uzadıldı



Tibb işçilərinin əməkhaqlarına müddətli əlavənin ödənilməsi vaxtı oktyabrın 1-dək uzadılıb. SİA-nın məlumatına görə, bu barədə Baş nazir Əli Əsədov qərar imzalayıb. Qərara əsasən, “Yeni növ koronavirus (COVID-19) infeksiyası ilə mübarizə tədbirlərində iştirak edən tibb işçilərinin əməkhaqlarına müddətli əlavənin müəyyən edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 25 mart tarixli 112 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 3, maddə 373; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 12 iyun tarixli 202 nömrəli Qərarı) 2-ci hissəsində “iyulun 1-dək” sözləri “oktyabrın 1-dək” sözləri ilə əvəz edilib.

# “Yeni tədris ilində 2 metodika tətbiq edilə bilər”



***“Təhsil Nazirliyinin nəzdində fəaliyyət göstərən Təhsil İnstitutu növbəti tədris ili üçün 2 metod - klassik metodu və hibrit metodunu təklif edir”. Bu sözləri SİA-ya açıqlamasında Təhsil Nazirliyi yanında İctimai Şuranın sədri, professor Şahlar Əsgərov növbəti tədris ilində təklif olunan təhsil metodikasından danışarkən deyib.***

Onun sözlərinə görə, növbəti tədris ilinin necə formalaşacağını demək indidən çətindir, bu məsələ heç kəsdən, hətta Təhsil Nazirliyindən belə asılı deyil: “Pandemiya ilə əlaqədar bütün sahələr üzrə qərarlar Nazirkər Kabineti yanında Operativ Qərargah tərəfindən verilir və bu qərarlar bütün qurumlar tərəfindən eyni dərəcədə tətbiq edilir. Bu məsələ ilə bağlı da Operativ Qərargah qərar qəbul edəcək və yeni tədris ilində qaydalar da məhz, bu qərara əsasən tənzimlənəcək. Operativ Qərargah bu günə qədər normal qərarlar qəbul edib. Lakin, hələ ki, yeni tədris ili ilə bağlı aydın olan bir məsələ mövcud deyil”.

Şura sədri bildirib ki, sabah Təhsil nazirinin müşaviri Simuzər Feyzullayeva videokonfransda çıxış edəcək və ola bilsin ki, bu istiqamətdə olan suallar Təhsil nazirinin müşaviri tərəfindən cavablandırılsın: “Təhsil Şurasının sədri kimi təəssüf ki, bütün bu suallara cavab verə bilmirəm. Lakin, yeni tədris ili üçün təklif olunan iki metod mövcuddur. Təhsil Nazirliyinin nəzdində fəaliyyət göstərən Təhsil İnstitutu növbəti tədris ili üçün iki metod - klassik metodu və hibrit metodunu təklif edir. Klassik metod, bu günə tətbiq edilən ənənəvi təhsil metodudur. Lakin, əgər koronavirus ciddi şəkildə bu işə mane olarsa, hibrit metoddan istifadə ediləcək. Hibrit metodda həm onlayn (distand) təhsildən, həm də məktəblərə gəlib-getməklə alınan üzbəüz təhsildən söhbət gedə bilər. Burada faiz dərəcəsi necə olacaq, bu hələ təyin olunmayıb. Faiz dərəcəsi dedikdə isə söhbət ondan gedəcək ki, hibrit metodda dərslərin neçə faizi onlayn, neçə faizi üzbəüz şəkildə təşkil olunacaq. Bu məsələ hələ ki, qalır. Çünki, həqiqətən də koronavirus pandemiyası cəmiyyəti qəfildən yaxaladı və bütün suallara cavab tapmaq və nəticələri əvvəlcədən ölçmək çox çətindir”.

**Nigar Məmmədova**

# Rusiyada təhsil alan azərbaycanlı tələbələr "AMOR təqaüdü"nü qazanıblar

*Rusiya Azərbaycanlı Gənclər Birliyinin (RAGB) sədri Leyla xanım Əliyevanın təşəbbüsü ilə keçirilən "AMOR təqaüdü" müsabiqəsində 18 azərbaycanlı tələbə qalib gəlib.*



AZƏRTAC xəbər verir ki, müsabiqə çərçivəsində Rusiya Federasiyasında təhsil alan əlaçı tələbələrə maliyyə yardımı göstəriləcək. Layihə təhsildə fərqlənən gənclərə tam dəstəyin göstərilməsi və gənclərin təhsilə olan marağının stimullaşdırılması məqsədilə həyata keçirilir. Cari ildə koronavirus pandemiyası ilə əlaqədar olaraq müsabiqənin miqyası genişləndirilib və 18 tələbə təqaüd qazanıb. 2019-cu ildə keçirilən müsabiqədə isə 13 tələbə təqaüdə layiq görülmuşdü.

Müsabiqədə iştirak üçün sənəd qəbulu təşkilatın veb-saytı və sosial şəbəkələrdəki rəsmi səhifələri vasitəsilə elan olunub. Bütün müraciətlərə RAGB komandası tərəfindən müsabiqənin tələblərinə uyğun şəkildə baxılıb, müvafiq ixtisaslar üzrə məzunların və Rusiya Federasiyasının gənclər sahəsində qeyri-hökumət təşkilatlarının nümayəndələrinin iştirakı ilə müsahibələr keçirilərək qaliblər müəyyən edilib. Müsabiqədə Rusiya Federasiyasının ali təhsil müəssisələrində əyani formada bakalavr və ya magistr təhsili alan əlaçı azərbaycanlı tələbələr iştirak ediblər.

Xatırladaq ki, RAGB Rusiya Federasiyasında yaşayan azərbaycanlı gənclərin həmrəyliyi və onlara sosial, yaradıcılıq və təhsil sahəsində dəstəyin göstərilməsi məqsədilə 2009-cu ildə Leyla xanım Əliyevanın təşəbbüsü ilə yaradılıb.

# Vüqar Bayramov: "Qaydalara əməl etməklə bütün sferalarda iqtisadi fəaliyyəti bərpa etmək mümkündür"

***Ölkəmizdə yeni standartlar çərçivəsində ictimai iaşə və xidmət sektorunda fəaliyyətlərin tam bərpası məqsədəuyğundur. AZƏRTAC xəbər verir ki, bu barədə Milli Məclisin deputatı Vüqar Bayramov deyib.***



O bildirib ki, avqustun 18-dən kafe və restoranlara açıq havada işləməsinə icazə verilib. İctimai iaşə müəssisələrində yenidən canlanma müşahidə olunur. Epidemioloji vəziyyət nəzərə alınmaqla iqtisadiyyatın mərhələli şəkildə tam açılması mümkündür. Mərkəzi və Şərqi Avropa ölkələrinin təcrübəsi göstərir ki, iqtisadi aktivliyin bərpası əhəmiyyətli olmaqla yanaşı, virusdan qorunmaq ilə bağlı qaydalara nəzarətin gücləndirilməsi və əməl edilməsinin təşviqi çox əhəmiyyətlidir. Bu cəhətdən ölkəmizdə də yeni standartlar çərçivəsində ictimai iaşə və xidmət sektorunda fəaliyyətlərin tam bərpası məqsədəuyğundur.

Deputat qeyd edib ki, rəsmi statistikaya görə, 4 milyon 879 min məşğul əhalinin 1 milyon 769 mini aqrar sektorda çalışır. Onların əksəriyyəti pay torpaq sahibləridir. Turistlərin yerləşdirilməsi və ictimai iaşə sektorunda 78,2 min, istirahət, əyləncə və incəsənət sahəsində isə 81,5 min vətəndaş çalışır. Ümumilikdə ictimai iaşə və xidmət sektoru ilə bağlı olan sözügedən iki sahədə 160 minə yaxın rəsmi çalışan işçi var. Ticarət, nəqliyyat vasitələrinin təmiri sahəsində isə 706 min vətəndaşımız işlə təmin olunub. Göründüyü kimi, iqtisadi açılım məşğulluq baxımdan da vacib hesab olunur.

"Hələlik ictimai iaşə müəssisələri qapalı məkanda xidmət göstərə bilmirlər. Bu baxımdan, qapalı xidmət göstərən kafe və restoranlar üçün də yeni standartların müəyyənləşdirilməsi və onların fəaliyyətlərinə icazə verilməsi məqsədəuyğun olardı. Məsələn, elə kafe və restoranlar var ki, onlar ümumi zalda deyil, fərdi otaqlarda müştərilərə qulluq edirlər. Halbuki, virusdan qorunma qaydalarını tətbiq etməklə onların da fəaliyyətinin bərpası mümkün idi. Nəzərə almaq lazımdır ki, ölkəmizdə kafe, restoran və xidmət obyektlərinin çalışdığı sektorda il ərzində 2 milyard manata yaxın dəyər yaradılır. Bu isə kifayət qədər ciddi rəqəmdir. Qeyd etdiyim kimi, Mərkəzi və Şərqi Avropa ölkələrinin təcrübəsi göstərir ki, pandemiyaya qarşı mübarizədə karantin qaydaları qədər standartların müəyyənləşməsi, onlara nəzarət və əməl edilməsi də vacibdir. Buna görə də, iqtisadiyyatın digər sektorlarının yenidən açılımı kontekstində həm qaydalara nəzarətin güclənməsi, həm də hər birimizin bu qaydalara əməl etməsinə ehtiyac var. Yalnız bu halda, həm yoluxma sayını azaltmaq və lokallaşdırmaq, həm də mərhələli şəkildə bütün sferalarda iqtisadi fəaliyyəti bərpa etmək mümkündür", - deyə V.Bayramov diqqətə çatdırıb.

# ÜST-nin rəhbəri COVID-19-a qarşı qlobal vaksinləşdirmə planı təklif edib



Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) baş direktoru Tedros Gebreyesus COVID-19-a qarşı vaksinin yaradılması və istehsalı məsələsində əvvəl yol verilmiş səhvləri bir daha təkrar etməməyə, bu problemin həllinə təcridçilik mövqeyindən yanaşmadan imtina etməyə çağırıb.

BMT-nin rəsmi saytında yer alan məlumata görə, Gebreyesus vaksinləşdirmənin iki mərhələdən ibarət qlobal planını təklif edib. ÜST-nin əsas şirkət və qruplarla hər həftə keçirdiyi görüşlər sayəsində Ümumdünya Ərzaq Proqramının əməkdaşları ilə əməkdaşlıq şəraitində tibbi təyinatlı yüklərin çatdırılması, saxlanması və daşınması üçün doqquz paylaşdırma mərkəzi yaradılıb. Beləliklə, tibbi materialların, o cümlədən COVID-19-a qarşı mübarizə üçün qoruyucu vasitələrin fasiləsiz təchizatını təmin etmək mümkün olub. ÜST-nin bu layihələrinin həyata keçirilməsində ona UNICEF, habelə özəl təşkilatlar, o cümlədən Bill və Melinda Geyts Fondu kömək edib.

ÜST rəhbəri xatırladıb ki, məhz dövlət sektoru ilə özəl sektor arasında əməkdaşlıq sayəsində fərdi müdafiə vasitələri və diaqnostika dəstləri istehsalı artırılıb, bu da öz növbəsində həmin mallara tələbatın ədalətli şəkildə təmin edilməsinə imkan verib. Hazırda ÜST hökumətlər və özəl sektor ilə əməkdaşlıq şəraitində elmi tədqiqatları fəallaşdırmaq və innovasiyaların üstünlüklərindən hər kəsin istifadə edə bilməsinə təminat vermək üzərində iş aparır. Məsələn, COVID-19-a qarşı təsirli vaksin yaradılan kimi ÜST-nin strateji məşvərət qrupu həmin vaksinin tətbiq edilməsi ilə bağlı tövsiyələr verəcək.

Qlobal proqramın ikinci mərhələsində təhdidlərin miqyası və əhalinin daha həssas təbəqələri nəzərə alınacaq. İlk növbədə həkimlər və sosial işçilər, həmçinin xroniki xəstəlikləri olan ahıl adamlardan söhbət gedir. Doktor Tedros bu qlobal proqramı orkestr ilə müqayisə edib: musiqinin yaxşı səslənməsi üçün bütün musiqiçilər bir-biri ilə həmahəng ifa etməlidirlər. ÜST-nin rəhbəri xəbərdarlıq edib: "İndi bütün dünya bir və ya iki aləti gərgin vəziyyətdə dinləyir, lakin bu kifayət deyil. Biz birlikdə "orkestr" şəklində elmi inkişaf etdirəcək, problemin həlli yollarını axtaracağıq. Biz ürəkdən inanırıq ki, əlbir işləyəndə ən yaxşı nəticəyə nail olacağıq".

# Bu il Azərbaycan və Ukrayna arasında ticarət dövriyyəsi yarım milyard dolları ötüb

Yanvar-iyul aylarında Azərbaycan və Ukrayna arasında idxal-ixrac əməliyyatlarının dəyəri 519 milyon dollar olub. Ukrayna Dövlət Statistika Komitəsinin açıqlamasında deyilir ki, 7 ayda Azərbaycan bu ölkəyə 273 milyon dollarlıq məhsul ixrac edib. Ölkəmizin Ukraynadan idxal etdiyi məhsulun dəyəri isə 246 milyon dollar olub. Qeyd edək ki, Ukrayna postsovet məkanında Azərbaycanla ticarət dövriyyəsinə görə Rusiyadan sonra ikincidir. Keçən il Azərbaycan və Ukrayna arasında ticarət dövriyyəsi 808 milyon dollara çatıb.

# Aleksandr Tixanski: "Paşinyanın və ətrafındakılarının sözlərini qiymətləndirməkdən imtina etmişəm"



Ermənistanın Gəncəyə zərbə endirməklə bağlı təhdidi Türkiyə-Azərbaycan hərbi təlimləri ilə əlaqədardır. Siyasətçilər deyirlər, hərbçilər isə müharibəyə hazırlaşır və vuruşurlar. SİA-nın məlumatına görə, bu sözləri Rusiya Hərbi Elmlər Akademiyasının professoru Aleksandr Tixanski deyib. ATƏT-in Minsk Qrupunun artıq vərdişə çevrilən hərəkətsizliyi və reaksiyasızlığı haqda danışan həmsöhbətimiz qeyd edib ki, təşkilatın Dağlıq Qarabağ məsələsi üzrə nümayəndələri hazırda bütün Avropa siyasətçilərinin toplaşdığı yerdə - Polşadadır: "Belarusda hakimiyyət transformasiyası onları daha çox narahat edir: ölkədə hakimiyyəti və onun geosiyasi vektorunu dəyişmək fürsəti yaranıb. Beləliklə, Ermənistan vurmağa cəsarət etməyəcək. Və ümumiyyətlə, heç kim heç yeri vurmayacaq - bu prosesdə marağı olan aktorlar yoxdur. Təxribatçılar olub və olacaq. Artıq çoxdan - 2018-ci ildən bəri mən Paşinyanın və ətrafındakılarının sözlərini qiymətləndirməkdən imtina etmişəm. Çünki ora uşaq bağçasıdır. Daha yüksək səslə kim qışqırırsa, ona da qulaq asırlar. Ancaq tökdüklərini özlərindən sonra heç kim təmizləmək istəmir", - Tixanski deyib.

# Ermənistan çətin suallar qarşısındadır...

*Rəsmi İrəvanın diasporla işində populist bəyanatlardan başqa heç bir gündəlik və fəaliyyət proqramı yoxdur. Hazırda Ermənistan mətbuatı da bu barədə bar-bar bağırır və mövcud hakimiyyəti də əməlli-başlı günahlandırır. Çünki, son dövrdə nəinki Tovuz istiqamətindəki döyüşlərdə, eləcə də dünya miqyasında diplomatik sahədə Ermənistanın məğlubiyyəti erməni cəmiyyətini bərk narahat edir və bu işğaçı ölkənin mətbuat səhifələrinə də sirayət edir.*



### Ermənipərəst təşkilatlara sığınmaq və sayələrində mövcudluğunu qorumaq Ermənistanın dövlət kimi mahiyyətini təşkil edir

Bir zamanlar erməni diasporu sayəsində ermənilərin ayaq tutub yeriyən yalanları artıq, necə deyərlər yerimir. Dünya ölkələri, beynəlxalq təşkilatlar, ABŞ kimi, Rusiya kimi fövqəl dövlətlərdə belə ermənilərin yalançı hay-küyləri işə yaramadı və diplomatik məğlubiyyətlərini də görməməzliyə vura bilməyən ermənilər bundan bərk narahatçılıq keçirirlər. Başda erməni baş naziri olmaqla, bu ölkənin hər bir vətəndaşının təlaşı əslində başadüşüləndir. Çünki, heç bir gücə, iqtisadi qüdrətə, dövlət kimi dayaqlara malik olmayan Ermənistanın hər zaman ümidləri xarici havadarlara, diaspor təşkilatlarının haray-həşirinə bağlı olub və indi bunun da işə yaramaması işğalçı ölkənin, onun vətəndaşlarının kürkünə birə salıb.

Hər bir ölkə özünəməxsus iqtisadi potensialla ayaqdadır və dövlətin mövcudluğu da, vətəndaşların vəziyyəti də məhz bu potensiala bağlıdır. Bununla yanaşı sabitlik, siyasi iradə, doğru-dürüst idarəetmə, sağlam hakimiyyət ölkənin stabilliyinin təminatıdır ki, bu sadalananlar da Ermənistanda yoxdur və bu işğalçı ölkə üçün xarakterik deyil. Bəs Ermənistan üçün xarakterik olan nədir? Əlbəttə ki, xarici güclərə, müxtəlif ermənipərəst təşkilatlara sığınmaq, arxalanmaq və onların sayəsində mövcudluğunu qorumaq bu işğalçı ölkənin dövlət kimi mahiyyətini təşkil edir.

### Dünya miqyasında Ermənistan dayaqlarını itirməkdə davam edir

Son dövrlərdə Ermənistan-Azərbaycan toqquşmaları və müxtəlif diaspor icmalarında yaşanan gərginlik fonunda Diasporla İş üzrə Baş Komissarlığın aparatında mühüm dəyişikliklər baş verdi. Son vaxtlar nə baş verir ki, başda Erməni baş nazir özü olmaqla, bütün ermənilərin yuxusu ərşə çəkilib? Niyə şəxsən Paşinyanın əmri ilə Diasporla İş üzrə Baş Komissarlığında əhəmiyyətli sayda əməkdaş işindən uzaqlaşdırıldı? Niyə bu işğalçı ölkənin baş naziri belə bir "təmizləmə" apardı və onu qane etməyən nə idi axı? Bəlkə də sual tam tərsinə qoyulsa daha düzgün səslənərdi və görəsən, dünya miqyasında Azərbaycana, azərbaycanlılara uduzan erməni diasporuna qarşı Nikolun bundan başqa hansı reaksiyası olmalı idi?

Şəxsən, baş nazir Paşinyanın əmri ilə idarə və şöbə müdirləri də daxil olmaqla ondan artıq ofis işçisi işdən azad edildi və uzaqlaşdırıldı. Elə bu fakt özü özlüyündə təsdiq edir ki, erməni cəmiyyəti də, Ermənistan hakimiyyəti də onların fəaliyyətindən razı deyil və hakimiyyət kürsüsünü inqlab bəhanəsi ilə, əslində isə dövlət çevrilişi ilə qamarlayan beli çantalı küçə nümayişçisinin aqressiyası da bundan dolayıdır. Bir növ erməni baş nazir özü belə anlamaq məcburiyyətində qaldı ki, dünya miqyasında özünün də, elə Ermənistanın da dayaqları itirir. Bu dayaqlarsız isə özü də, elə Ermənistan da bir heçdir. Xüsusən, bütün dünya ermənilərinə Ermənistana yardım ayırması üçün Paşinyanın müraciətindən sonra bu ölkəyə qəpik-quruş göndərilməsi də bir növ Nikolu qəflət yuxusundan ayıltı. Xəyallarının, utopik düşüncələrinin məst elədiyi yuxunun sonda özü üçün də, ölkəsi üçün də fəlakətlər vəd etdiyini dərhal dərk elədi.

Başda elə Nikol özü olmaqla, ermənilərin yalanla doldurulan pafoslu fikirləri, iddiaları mahiyyətsiz şəkildə kənara atıldı və hətta müttəfiqləri belə Azərbaycanın mövqelərini müdafiə etdilər. Daha dəqiq desək müdafiə etmək məcburiyyətində qaldılar. Çünki, Azərbaycan haqlı mövqeyini ortaya qoya bildi və hər bir sahədə uğurlu fəaliyyəti, siyasi, iqtisadi, diplomatik uğurları ilə ermənilərin müttəfiqlərini belə fakt qarşısında qoydu. Ermənilər isə bir sıra xarici ölkələrdə iğtişaşlar, qarşıqlıqlar törətməklə, Azərbaycan səfirliklərinə hücumlar təşkil etməklə, bir daha vandal, terrorçu olduqlarını sübut etdilər. Heç bir nəticə belə əldə edə bilməyən, əvəzində azərbaycanlıların sivil müqaviməti ilə rastlaşan və bu müqavimət qarşısında aciz qalan ermənilər, başda Nikol özü olmaqla indi bir növ günah keçisi axtarışındadır və real vəziyyətə görə, ermənilərin məğlubiyyəti reallığını həzm edə bilmir.

### Ermənistanın diasporla işində real gündəliyi və fəaliyyət proqramı yoxdur

Görəsən, həzm edə bilməsələr belə, hər istiqamətdə məğlubiyyətlərini görən ermənilərin, Ermənistan hakimiyyətinin bu məğlubiyyətlərdən xilas olmağa ümidləri belə varmı? Yoxdur və ola da bilməz. Çünki, Ermənistan hakimiyyəti problemlərin nədən qaynaqlandığını düzgün qiymətləndirmək, etiraf etmək niyyətində deyil. Ötən əsrin ortalarından yalnız işğalçılıq siyasəti yürüdənlərin reallıqla, Azərbaycan həqiqətləri ilə, Azərbaycanın uğurları, potensial üstünlükləri ilə barışmaması onların belə bir niyyətdə olmamasını isbatlayır və bunu da bütün dünya artıq açıq-aşkar şəkildə görür, etiraf edir. Etiraf etməyənlər də özlərini görməməzliyə vururlar sadəcə. Reallıqları, həqiqətləri görməməzliyə vuranlar bu gün nöqsanları düzəltmək üçün çalışırlarmı və yaxud buna çalışa bilərlərmi? Diasporla normal, qanuni şəkildə işləmək üçün fəaliyyət proqramına ehtiyac duyumu Ermənistan? Bu işğalçı ölkənin belə bir proqramı ümumiyyətlə varmı? İndi müttəfiqlərinin belə gözündən düşən, müttəfiqlərinin belə müdafiəsinə sığına bilməyən Ermənistan çıxış yolu haqqında düşünürmü? Yaxud, Ermənistan düşdüyü, daha doğrusu özünü sürüklədiyi acınacaqlı vəziyyətdən çıxış yolu görürmü? Görürmü ki, işğalçılıq siyasətindən əl çəkməyəcəyi təqdirdə bir az da quyunun dibinə, məhvə sürüklənəcək? Bu və bir çox suallar bu gün öz aktuallığını qoruyur və başda Nikol Paşinyan olmaqla, bütün ermənilər dərk etmək məcburiyyətindədirlər ki, Ermənistan həyati vacib suallar qarşısındadır...

*İnam Hacıyev*

# "Seroloji testlərin keçirilməsi həm əhali, həm də dövlətimiz üçün çox vacibdir"

"Seroloji testlərin mahiyyəti, daha əvvəl insanın koronavirusla qarşılaşıb-qarşılaşmadığı barədə məlumat verməsindən ibarətdir. Yəni, insanlarda virusa qarşı qanında anti-cisim yaranır ki, bu anti-cisimləri müəyyən etməyin yolu seroloji testlərin aparılmasıdır". Bunu SİA-ya açıqlamasında "Yeni Klinika"da koronavirusla mübarizədə ön cəbhədə fəaliyyət göstərən həkim Vasif Əliyev deyib. Həkimin sözlərinə görə, bu test nəticəsində şəxs özü haqqında məlumat alır: "Bu testlər təsadüfi seçilmiş insanlar arasında könüllülük prinsipi əsasında həyata keçirilir. Seroloji testə razılıq vermək və ya testdən imtina etmək şəxsin özündən asılıdır. Lakin mən düşünürəm ki, testin mahiyyətini doğru dərk edən bir insan testin keçirilməsinə mütləq razılıq verəcək. Məsələn, mən şəxsən özüm virusa yoluxub-yoluxmadığımı bilmək üçün öz hesabıma seroloji test etmişəm. Amma dövlət tərəfindən belə bir təşəbbüsün irəli sürülməsi zəminində mənim fikrimcə insanlar bu testin keçirilməsinə razılıq verəcək".



V.Əliyev vurğulayıb ki, biz tibb işçiləri ölkədə faiz etibarilə nə qədər insanın bu virusla qarşılaşıb-qarşılaşmaması barədə məlumat əldə etmiş oluruq: "Nəticədə isə bir sonrakı virus dalğasının cəmiyyət üçün nə qədər təhlükəli olub-olmayacağını proqnozlaşdıra biləcəyik. Fərd bu test nəticəsində gələcəkdə virusa yoluxa bilərmi? və ya virusa qarşı qoruyuculuğu varmı? kimi suallar cavab tapacaq. Bütün bunları nəzərə alaraq deyə bilərəm ki, bu testlərin keçirilməsi həm əhali, həm də dövlətimiz üçün çox vacibdir".

# Ermənistanda COVID-19 virusuna yoluxanların sayı 42 mini ötüb




Ermənistanda koronavirusa yoluxanların sayı 42 min 56 nəfərə çatıb. Onlardan da 210-u son 24 saat ərzində COVID-19-a yoluxub. Bu barədə məlumatı ölkənin Səhiyyə Nazirliyinin Xəstəliklərə Nəzarət və Profilaktikası Milli Mərkəzi yayıb. Bildirilir ki, Ermənistanda pandemiya qurbanlarının sayı da artaraq 833 nəfərə çatıb. Bundan başqa son sutka ərzində daha 249 koronavirus xəstəsi başqa səbəblərdən ölüb. Hazırda Ermənistanda 5 min 748 aktiv koronavirus xəstəsi var.

# Mahmud Abbasdan xəbərdarlıq: "Heç kim adımızdan danışa bilməz"




Yaxın Şərqdə söz sahibi olmağa çalışan Fransa Prezidenti Emmanuel Makron Fələstin lideri Mahmud Abbası bir sıra məsləhətləşmələr üçün Parisə dəvət edib. SİA-nın məlumatına görə, telefon danışığı zamanı Abbas heç kimin onların adından danışa bilməyəcəyini söyləyərək Makrona xəbərdarlıq edib. E.Makron fələstinli həmkarı ilə telefon danışığının detallarını Tvitter hesabında elan edib. Parisə dəvəti rədd etməyən Abbas görüşmək üçün Fransaya gələcəyini bildirib.

# “Qolos Armeniya” Nikolun BBC rüsvayçılığını ələ saldı

## *“Stiven Sakurla müsahibəyə gedərkən, başına sevimli kepkasını geyinmək, əlini isə bintlə sarımaq yadından çıxıb...”*

***Ermənistanın baş naziri Nikol Paşnyanın BBC rüsvayçılığı elə onun öz ölkəsində də istehza obyektinə çevrilib. Belə ki, onun ingilis dilində danışa bilməməsi, eləcə də Stiven Sakur tərəfindən verilən suallar qarşısında özünü itirməsi, demək olar ki, bütün ölkə KİV-lərində yazılmaqdadır. SİA xəbər verir ki, “Qolos Armeniya” qəzetinin Nikol Paşinyana istehzalı yanaşmasına görə, hər kəs Stiven Sakura müsahibə verən yazıq baş nazirin üzərinə hücum çəkib. “Həmin gün bizim baş nazir üçün uğurlu olmayıb, hər şey isə ondan başlayıb ki, o, sevimli kepkasını geyinməyi və əlini bintlə sarımağı yadından çıxarıb”, yazılan yazıda bildirilir ki, məhz buna görə də nə danışdığının fərqinə varmayıb.***



Eyni zamanda, “Mövzu yalnız koronavirus, iqtisadi inqilab və Robert Koçaryanın işi ilə bağlı olsaydı dərd yarı idi”, qeyd edilən məqalədə söhbətin Dağlıq Qarabağ problemindən də getdiyini yazan müəllif Paşinyanın özünü münaqişə tarixinin “dərin bilicisi” kimi aparmasına özünəməxsus şəkildə münasibət sərgiləyib.

### “Axı 18-19 % erməni Azərbaycandan nə istəyir?”

Bu arada, haşiyə çıxaraq qeyd edək ki, Nikol Paşinyanın münaqişə başladığı tarixdə Qarabağda 18-19 faiz erməninin yaşadığını deməsi məsələsi də ermənilərin ciddi narazılıqlarına səbəb olub. Elə “Qolos Armenii” qəzetinin də sözügedən məqaləsində iddia olunub ki, guya münaqişə başlayarkən, Qarabağda 80-90% erməni yaşayırmış (?-R.R.) Lakin Paşinyanın ingilis dilini normal bilməməsi, eləcə də rəqəmləri səsləndirərkən yanlışlığa yol verməsi onun 18-19 faiz üzərində dayanmasına səbəb olubmuş və s... SİTAT: “Yox, əlbəttə ki, biz burada, Ermənistanda anladıq ki, baş nazir Sakura ingilis dilində cavab verərkən ona “klas” göstərmək istəyib. İngilis dili isə elə çətin dildir ki, bu dildə onsəkkizi səksənlə, ondoqquzu doxsanla fərqləndirmək də çətinlik yaradır...”

Yox, biz əlbəttə ki, hər şeyi başa düşürük. Ancaq get bunu məşhur Birminqem şəhərindəki evdar xanıma, ya da nümunə üçün Torontoda başa sal. Onlar Paşinyanın dediklərini eşidərkən, səmimi şəkildə soruşacaqlar ki, axı 18-19 % erməni Azərbaycandan nə istəyir? Və nə əmr edərsiniz? XİN rəsmi şəkildə təkzib verməlidir? Paşinyan yenidən rükzakını taxıb və ingilis dilli ölkələrə səfərlər edib nə demək istədiyini anlatmalıdır? Pis ideya deyil əslində: dünyanı seyr etmək və özünü göstərmək...”.

### Paşinyanın ingilis dili müəlliməsi günahkar çıxarıldı...

“Bax beləcə hər kəs yazıq baş nazirə hücuma keçib. Millətçilər, liberallar, patriotlar, qlobalistlər, pasifistlər, tarixçilər, jurnalistlər, ekspertlər, bloqerlər, hətta Erməni Milli Konqresindən Levon Zurabyan... O da deyir ki, bu cür ingilis dilinlə özünü haraya soxmusan?

Hətta bəziləri düşünürlər ki, Paşinyan vilayətçilik kompleksindən əziyyət çəkir. Əgər nədəsə uğur əldə edirsənsə və bu da sənə azlıq edirsə, sən hər kəsə sübut etmək istəyirsən ki, bütün məsələlərdə nəhəngsən. Yəqin ki, həqiqətən də belə bir məsələ var. Ancaq Ermənistanda bu kompleksə əsasən, Tavuş regionundan çıxanlar malikdirlər...”

Beləliklə, istehzalı məqalədə Nikol Paşinyanın belə bir vəziyyətə düşməsinin əsas günahkarlarından biri kimi Lilit Makunst da göstərilir. Bu, həmin L.Makuntsdur ki, Paşinyanın orta məktəbdə təhsil aldığı məktəbdə ona ingilis dilindən dərs deyib. Paşinyan isə hakimiyyətə gələr-gəlməz onu mədəniyyət naziri, sonra isə təhsil naziri vəzifəsinə təyin edib. Sonra isə L.Makunts nazir kürsüsündən parlament fraksiyasının rəhbəri kürsüsünə keçirilib. “Bax, ona görə də biz düşünürük ki, Paşinyanın məsələsində günahkar məhz Lilit Makunstdur”, qeyd edən müəllif istehza ritorikalı yazısında Ermənistanın baş nazirini necə deyərlər, “yıxıb-sürüyüb”...

**Rövşən RƏSULOV**

---

# 25 nəfər ədliyyə orqanlarından xaric olunub




***Son dövrdə fəaliyyətində pozuntulara və ciddi nöqsanlara yol verən 400 ədliyyə işçisi, o cümlədən 40 icra xidməti əməkdaşı intizam məsuliyyətinə cəlb olunub. SİA-nın məlumatına görə, bu barədə Ədliyyə Nazirliyi məlumat yayıb.***

Nazirlik bildirir ki, cəza almışlardan 25 nəfəri ədliyyə orqanlarından xaric olunub, 12-si məsul vəzifəsindən azad edilib. Hətta 5-i barədə materiallar istintaqa göndərilib. 16 nəfər ədliyyə işçisi xüsusi karantin rejimi tələblərini pozduqlarına görə cəzalanıb: “Bundan əlavə, Nazirlikdə son zamanlar aparılan kadr islahatları çərçivəsində bir neçə baş idarə və idarələrin rəhbərliyi yenilənmiş, o cümlədən də İcra Baş idarəsinin rəisi tutduğu vəzifəsindən azad edilib”. Həmçinin bu ilin 6 ayı ərzində 80-dən artıq gənc ədliyyə orqanlarına qulluğa qəbul olunub, 70 işçinin rotasiyası aparılıb.

# “Minsk qrupu yox, bizə torpaqlarımızın geri qayıtması lazımdır”

Ermənilərin Gəncəni vurmaqla bağlı səsləndirdikləri fikir absurddan başqa bir şey deyil. Bu sözləri SİA-ya verdiyi açıqlamasında siyasi şərhçi Azər Həsrət deyib.

Siyasi şərhçi vurğulayıb ki, Ermənistanın bunu edəcək, yəni Gəncəni vurmaq kimi gücü də, cəsarəti də yoxdur.

“Niyə belə hədə, belə fikir səsləndiriblər? Ona görə ki, Tovuzda Ermənistanın, işğalçı Ermənistanın burnu ovuldu. Yəni, onlara əməlli başlı yerləri göstərildi. Bu günlərdə Sərhədd Qoşunlarının günündə Azərbaycan Sərhədd Qoşunları rəsmiləri bəyan etdilər ki, həmin döyüşlərdə ermənilər 2 kilometrə qədər geri otürdulublar. Yəni, Azərbaycanın sərhədd postları Ermənistana doğru 2 kilometrə qədər, 1500, 1600, 1700 metr yerini dəyişdirib. Bu, birmənalı şəkildə o deməkdir ki, 12 iyul tarixində başlayan yeni işğal cəhdində əməlli-başlı uduzub. Təbiidir ki, bu uduzma Ermənistan ictimai rəyində Ermənistan hakimiyyətinin əleyhinə işləyir. Ona görə də onlar vəziyyətdən çıxmaq üçün özlərini qalib kimi, daha güclü kimi göstərmək bu cür manipulyasiyaya gedirlər. Yəni, hətta Ermənistan deyil, Dağlıq Qarabağdakı separatçılar belə Gəncəni vuracaq qədər guya güclüdürlər. Təbii ki, boş söhbətdir. Vurandırlarsa, buyurub vursunlar. On qat artığını alacaqlar Azərbaycan tərəfdən. Təbii ki, buna gedə bilməzlər, bu birincisi.



İkincisi də, ATƏT-in Minsk Qrupu biz illərdir deyirik ki, keyfiyyətsiz, faydasız və mənasız bir qurumdur. Yəni, faktiki olaraq o qurumun özünün axırıncı dəfə nə vaxt toplaşdığını biz bilmirik. Minsk Qrupunun bütövlükdə özündən söhbət gedir. Mən şəxsən xatırlamıram ki, onlar axırıncı dəfə haçan bir araya gəliblər. Sadəcə olaraq Minsk Qrupunun həmsədrləri olan üç ölkə, ABŞ, Rusiya və Fransa aktiv kimi görünməyə çalışırlar. Bunların nümayəndələri, Azərbaycana, Ermənistana səfər edir, gedib Dağlıq Qarabağdakı separatçılarla da görüşürlər və bir bəyanat verib məsələni sülh yolu ilə həll etməyə çağırıb, çıxıb gedirlər. Təbii ki, səfər etdikləri yerlərdə yeyib-içib xoşbəxt olub çıxıb gedirlər. Yəni, bunların gördüyü heç bir iş yoxdur. Ona görə də, Dağlıq Qarabağı işğal altında tutan qüvvələrin, konkret olaraq Ermənistan Respublikasının ordusunun adı altında, yaxud da, himayəsi altında oradakı o bölücülərin bu cür ifadə səsləndirməsinə ATƏT-in Minsk Qrupunun həmsədrləri biganə qalırlar, biganə yanaşırlar. Əslində, onlar dərhal bəyanat verməli və konkret ünvan göstərərək, erməniləri təcavüzkarlıqdan çəkindirməli idilər. Yəni, burada söhbət Azərbaycandan gedə bilməz. Çünki, həmişəki kimi tərəfləri çağıra bilməzlər. Azərbaycan iddia eləmir ki, biz haranısa vuracayıq. Amma Ermənistan tərəfi, işğalçılar bunu iddia edir. Ona görə ATƏT-in Minsk Qrupu o iddiaya uyğun cavab verməli idi. Amma təəsüflər olsun ki, vermirlər. Vermədiklərinə görə bir daha bizim sözümüz doğrulanır ki, o qurum, keyfiyyətsin, mənasız, faydasız bir qurumdir. Ona görə də Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsinin qarşısında duracaq tək qüvvə azərbaycan Respublikasının özü, Ali Baş Komandan Cənab İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Silahlı Qüvvələri və vətən üçün hər bir zaman döyüşməyə hazır olan hər bir azərbaycanlıdır. Təbii ki, bizim yanımızda Türkiyə dövləti vardır öz ordusu ilə. Pakistan dövləti daim Azərbaycanın yanında olduğunu ifadə eliyib və istədiyimiz zaman çağıracağımız təqdirdə buraya gələcəklər. Yəni, biz özümüzə və ən yaxın dostlarımıza, tərədaşlarımıza güvənməliyik. ATƏT-in Minsk Qrupu isə sadəcə olaraq, quş qomaq üçündür ki, guya nəyi isə etdilər deyə mövcuddur və bu da bizə lazım deyil. Çünki, bizə torpaqlarımızın geri qayıtması lazımdır”, deyə Azər Həstət bildirib.

**İnam Hacıyev**

# Dalana aparan yol...

### Paşinyanın günü necə olacaq?

Doğurdan da haqq nazilər, amma üzülməz. Elə son günlər baş verən olaylar bir daha göstrdi ki saxtakarlıq, yalan danışmaq ermənilərin qanındadır. Bu fikir siyasətçilər və dahilər tərəfindən dəfələrlə deyilib və sübut edilib. Əslində, bu, çoxları üçün yenilik olmasa da, erməni baş nazir Nikol Paşinyan üçün hələ də anlaşılmazdır. Küçə “demokratı”nın yalanlar üzərində qurduğu utopik xəyalarını erməni xalqının başına yeridərək Ermənistanı “inkişaf etmiş ölkələr sırasına çıxaracığı” vədləri elə vədlər olaraq qaldı. Verilən vədlərə və yalanlara diqqət yetirək: Paşinyan deyirdi ki, “2019-cu ilin sonuna qədər Ermənistan iqtisadi artım baxımından ilk onluğa daxil olmasa da ilk 15 ölkə arasında yer alacaq”.

Bu sözləri Nikol erməni sahibkarlar üçün yeni il qəbulu zamanı bəyan etmişdi. Söylədiyi yalandan cuşa gələn baş nazir Ermənistanın başa çatmaqda olan ildəki göstəricilərinin, nəinki Cənubi Qafqazda, hətta dünya ölkələri arasında da “rekord” qırdığını bildirirdi. “!Novosti Armeniya” saytı Paşinyanın fikirlərindən sitat gətirib: “Ermənistan tərəfindən həyata keçirilən “bu uğur” nəinki Avrasiya İqtisadi Birliyi, hətta MDB ölkələri arasında ilk göstəricidir. Mən yüksək ehtimalla, iqtisadi artım baxımından Ermənistanın Avropada liderlər sırasında olacağına da şübhə etmirəm”.

Bəli, bu gün Paşinyanın hər sözü yalandır. Elə bu günlərdə işğalçı ölkənin baş naziri Nikol Paşinyanın BBC-nin “Hard Talk” proqramına müsahibəsində aparıcı Stephen Sackurla söhbətdə səsləndirilən suallarla bağlı çətin duruma düşdü. Xüsusilə, Ermənistanın Azərbaycan torpaqlarını işğal altında saxlaması, BMT qətnamələrinin məzmunu ilə bağlı fakt qarşısında qalması Nikol Paşinyanın simasında Ermənistanın Azərbaycana qarşı tutduğu mövqe, yalanları dünyaya çatdırıldı. Bu müsahibədən sonra artıq dünyanı erməni yalanları ilə aldatmaq mümkünsüzdür.



### “HardTalk” Paşinyanın siyasətdə təcrübəsiz olduğunu sübut etdi

Doğrudur, bu müsahibədə N.Paşinyanın bütün iç üzünü ortaya qoydu. Bəzi məqamlara daha konkret faktlarla aydınlıq gətirmək istərdik. Ən əsası isə, “Hard Talk” proqramı Paşinyanın siyasətdə təcrübəsiz olduğunu, tam formalaşmadığını bir daha sübut etdi. Əslində, Paşinyan siyasi savad səviyyəsi və təcrübəsizliyini bundan əvvəlki beynəlxalq tədbirlərdə də göstərmişdi. Belə ki, onun Münxen konfransında Prezident İlham Əliyevlə debat zamanı mat vəziyyətinə düşməsi və üzləşdiyi biabırçılıq bu gün də dünya siyasi arenasında hamının xatirindədir. Azərbaycan Prezidenti İlham Əliyevin arqumentlərə və tarixi faktlara, uğurlu diplomatik gedişlərə əsaslanan çıxışı qarşısında Paşinyanın miskin görünüşü nüfuzlu xarici media orqanlarında da işıqlandırılmış, hətta öz ölkəsində də mediada sərt tənqid edilmişdi. Və Paşinyanın Münhen biabırçılığı daha kəskin formada “Hard Talk” proqramında bir daha təkrarlandı və milyonlarla izləyici bunun şahidi oldu.

Digər məqam isə, Paşinyan bu ilin iyul ayında Tovuz istiqamətində Ermənistan ordusunun təxribatı ilə bağlı verilən suala özünün uydurma yalan faktları ilə, guya bu təxribatın Ermənistan tərəfindən deyil, Azərbaycan tərəfindən törədildiyini bildirmək istəsə də, jurnalist onun bu istəyinə imkan verməyərək, BMT-nin 4 məlum qətnaməsinə əsasən Ermənistanın işğal olunmuş əraziləri tərk etməli olduğunu xatırlatması və bu sual qarşısında müsahibin pərt duruma düşməsini proqramın kulminasiyası, baş nazir Paşinyanın karyerasında isə ən “yaddaqalan” müsahibə hesab etmək olar. Göründüyü kimi, biabırçı vəziyyətə düşmək nə deməkdir.

Digər maraqla məqam isə, Paşinyanın münaqişə başlanan zaman Dağlıq Qarabağ əhalisinin 18 faizinin erməni olduğunu etiraf etməsi dolayısıyla bölgədə demoqrafik baxımdan yerli azərbaycanlı sakinlərin üstün olduğunu qəbul etdiyini deməsi oldu. O zəman jurnalist “belə olan halda üstünlük təşkil edən azərbaycanlı əhali indi hanı?!” deməsi, məntiqi olaraq yaranan bu suala cavab nə ola bilər? O zaman beynəlxalq qurumlar qəbul etdikləri sənədlərə əsasən 1 milyon məcburi köçkünün pozulmuş hüquqlarının qorunmasına nə cavab verməlidir? Göründüyü kimi, istər Münxen konfransı çərçivəsində debat, istərsə də BBC-yə verilmiş məlum müsahibə onu göstərir ki, işğalçı ölkənin təmsilçisi Paşinyan Prezident İlham Əliyevlə danışıqlarda tam aciz, tərksilah olunmuş, küncə sıxılmış durumda olur.

### Erməni politoloq: “Ermənistan Xarici İşlər nazirinin BBC-yə müsahibəsi diplomatik erməni düşüncəsinin ən pis təzahürlərindən idi”

Bnu erməni politoloq Andranik Tevanyan bildirib. O qeyd edib ki, nazirin verdiyi cavablar asimmetrik və qeyri-adekvat idi: “Ən təhlükəlisi odur ki, nazir Paşinyanın yanlış bəyanatlarını düzəltməyə və beynəlxalq mətbuatda mövqeyimizi aydınlaşdırmağa çalışdı. Azərbaycan Prezidenti İlham Əliyev “Qarabağ Azərbaycanındır və NİDA” işarəsi variantı ilə danışır, Mnatsakanyan isə müsahibəsi zamanı Qarabağın statusu və təhlükəsizliyi haqqında bildirir. Prezident İlham Əliyev Naxçıvanla quru əlaqəsinin yaradılması haqqında danışır, Mnatsakanyan isə Paşinyanın dediyini təkrar edərək bildirir ki, münaqişənin həll variantı Azərbaycan xalqını da təmin etməlidir”.

### Paşinyana vurulan ən ağır zərbə - Azərbaycanın qüdrətli reallığı

Beləliklə, göründüyü kimi, Paşinyan bu qüdrətli reallığı görməsə də, Azərbaycan Prezidenti ona dəfələrlə dərk etdirib. 1962-ci ildən keçirilən Münxen Təhlükəsizlik Konfransı dünyanın ən nüfuzlu dialoq platformalarından biri sayılır. Yuxarıda vurğuladığımız kimi, belə bir önəmli tədbirdə Azərbaycan Prezidenti İlham Əliyev Ermənistanın hökumət başçısına tarixi dərs verdi. Prezident İlham Əliyev çıxışında Dağlıq Qarabağ, eləcə də Azərbaycanın digər tarixi əraziləri, ö cümlədən İrəvanla, həmçinin Ermənistanın bir dövlət olaraq formalaşdırılması ilə bağlı tarixi faktlara söykənən tarixi çıxışı Paşinyanın yalanlarını darmadağın etdi. Və bu debatda, sadəcə, Ermənistanın baş naziri deyil, bütövlükdə erməni təbliğat maşını dünyanın gözü qarşısında Azərbaycan Prezidentinə məğlub olduğunu bir daha sübut etdi.

Azərbaycan Prezidenti İlham Əliyev Ermənistanda faşizmin qəhrəmanlaşdırılmasının yolverilməz olduğunu dəfələrlə bəyan edib. Azərbaycan Prezidenti müxtəlif səviyyəli platformalarda bununla bağlı bəyanatlar səsləndirib. Dövlət başçısı alman faşizmi ilə əməkdaşlıq etmiş, buna görə SSRİ hüquq-mühafizə orqanları tərəfindən həbs olunmuş Qaregin Njdeyə Ermənistanda heykəl qoyulmasını da kəskin şəkildə pisləyib, bunun qəbuledilməz olduğunu bildirib. Prezident İlham Əliyev Rusiyanın TASS informasiya agentliyinə son müsahibəsində bildirmişdir ki, İkinci dünya müharibəsi iştirakçılarının abidələrinə qarşı vandalizm aktı, faşistlərə heykəllər qoyulması nifrət və ikrah hissi oyadır. Ölkə başçısı təəssüflə qeyd etmişdir ki, Ermənistanda faşist canilərinin qəhrəmanlaşdırılması həyat normasına çevrilir və buna konkret misal kimi, bir neçə il öncə Ermənistanda faşist cəlladı və caniyə, Njde ləqəbi ilə məşhur olan Qaregin Ter-Arutyunyana 6 metr hündürlüyündə heykəl qoyulduğunu xatırlatmışdır. Rusiya Federasiyası Xarici İşlər Nazirliyi, həm də Rusiya Federasiyası Müdafiə Nazirliyi tərəfindən dərc edilmiş sənədlərdə Q.Njdenin cinayətlərinin sübut olunduğunu deyən Prezident İlham Əliyev bu erməni faşistinin müharibə dövründə dediyi “Almaniya uğrunda həlak olan Ermənistan uğrunda həlak olur” sözlərini də diqqətə çatdırmışdır.

### Ermənistanda hakimiyyət böhranı dərinləşir

Bütün bu siyasi proseslərlə yanaşı, bu gün Ermənistanda iqtisadi böhran da dərinləşməkdədir. Xüsusilə də, Paşinyanın son açıqlamaları, və savdsız müsahibələri Ermənistan daxilində reytinqi ciddi problemlər fonunda sürətlə düşür. Bir tərəfdən Paşinyanın dünya dövlətləri çərçivəsində savadsızlığı, digər tərəfdən pandemiyanın gətirdiyi ciddi problemlər, eyni zamanda Rusiya ilə “qaz anlaşması”nın əldə edilməməsi, habelə, ölkə daxilində vətəndaş həmrəyliyinin mövcud olmaması Paşinyan iqtidarını küncə sıxır. Bir sözlə, Paşinyanın və onun komandasının uğursuzluğu hər gün artır. Paşinyan bütün problemləri koronavirusla əlaqələndirməyə çalışır, lakin müxalifət böhranın başlıca səbəbi kimi Paşinyanın səriştəsizliyini önə çıxarır. Beləliklə, bütün bu faktlar bir daha Ermənistanın faşist və təcavüzkar mahiyyəti növbəti dəfə sübut etdi. Bütün bunlar xəyal deyil, reallıqdır... Paşiyanı da babasının aqibəti gözləyir. Haqq-ədalət sözsüz ki, vaxt gələcək öz yerini tutacaqdır.

**A.SƏMƏDOVA**

# “Ermənistan tərəfi konstruktiv mövqedən qat-qat uzaqdır”



“Ermənistan tərəfi münaqişədə konstruktiv mövqedən qat-qat uzaqdır, onları bu mövqeyə gətirmək üçün təkcə Azərbaycanın səyi yox, beynəlxalq ictimaiyyətin, xüsusilə də ATƏT-in Minsk qrupunun səyi mütləqdir”. Bu sözləri SİA-ya açıqlamasında siyasi məsələlər üzrə ekspert İlqar Vəlizadə, son vaxtlar Ermənistanın Azərbaycanla bağlı səsləndirdiyi təxribat xarakterli bəyanatlara münasibət bildirərkən deyib.

Onun sözlərinə görə, Ermənistan tərəfindən son vaxtlar səslənən ağlasığmaz bəyanatların içərisində Gəncəni vurmaqla bağlı bəyanat mühüm yer tutur, bu bəyanat Ermənistanın və Ermənistan siyasi rəhbərliyinin münaqişəyə və onun perspektivlərinə yanaşmasından xəbər verir: “Ermənistan tərəfi həm cəbhə xəttində, həm də Ermənistan-Azərbaycan sərhəddində yaranmış gərgin vəziyyətdən nəticə çıxartmır. Son illər ərzində Ermənistan tərəfi münaqişənin həlli ilə bağlı hər hansı bir əsaslı addım atmayıb. Lakin, daxili siyasətdə bu mövzudan məharətlə istifadə edilib. Xüsusilə də Ermənistanın hakim siyasi rəhbərliyi öz siyasi rəqiblərinə qarşı bu siyasətdən istifadə edib. Son bəyanat ondan xəbər verir ki, Ermənistan regiondakı real vəziyyəti dərk etmir, real qiymətləndirə bilmir. Öz əhalisi içərisində də çaşqınlıq yaradır. Biz bilirik ki, Azərbaycan tərəfi heç vaxt Ermənistanda əhalinin sıx yaşadığı əraziləri vurmaqla bağlı bəyanatlar səsləndirməyib. Bizim əsas hədəfimiz işğal olunmuş torpaqlardakı hərbi obyektlər olub, hansı ki, onlar real təhlükə törədirlər. Ermənistan tərəfi çalışır ki, vəziyyəti elə göstərsin, guya, Azərbaycanın əsas hədəfi erməni xalqıdır və dinc əhalidir”.

Ekspert vurğulayıb ki, Ermənistan siyasəti bizə məlumdur, məhz, onlar Azərbaycanın dinc əhalisinə qarşı çirkin, işğalçı, etnik təmizləmə və sorqırımı siyasəti aparırlar: “Bu bəyanat onu göstərir ki, Ermənistan öz siyasətini davam etmək niyyətindədir. Gəncəyə zərbə endirmək hədə-qorxusu Ermənistan tərəfinin əsas düşmən kimi Azərbaycanın dinc əhalisini hədəf tutmasını göstərir. Onlar Azərbaycan əhalisinə qarşı siyasi kampaniya aparır, bölgədə etnik, dinc əhaliyə qarşı terror siyasətini davam etdirməkdir. Buna ən gözəl nümunə axırıncı bəyanatdır. Təəssüflər olsun ki, bu cür terror mahiyyətli bəyanatlara beynəlxalq təşkilatlar, ATƏT-in Minsk qrupu biganə yanaşır. Lazımı qiymət, sərt cavab vermir. Ermənilər belə vəziyyətdə daha da kəskin bəyanatlarla çıxış edirlər, hədə-qorxuların sayı daha da çoxalır. Regional gərginlik onsuz da çoxdur və Ermənistan tərəfi sünu olaraq gərginliyi saxlamağa çalışır. Bu da Ermənistanın münaqişədə konstruktiv mövqedən qatqat uzaq olduğunu göstərir. Onları bu mövqeyə gətirmək üçün təkcə Azərbaycanın səyi yox, beynəlxalq ictimaiyyətin, xüsusilə də ATƏT-in Minsk qrupunun səyi mütləqdir”.

***Nigar Məmmədova***

# Sənət tariximizdə ssenarist, rejissor, yazıçı Həsən Seyidbəyli dünyası

***Ssenarist, rejissor, yazıçı, əməkdar incəsənət xadimi, xalq artisti Həsən Seyidbəyli uzun və genişşaxəli yaradıcılıq yolu ilə sənst tariximizdə yer tutub. Kinorejissor kimi də, yazıçı kimi də çox uğurlara imza atmış, nailiyyətlər qazanmış Həsən Seyidbəyli yaradıcılığı sevilərək minlərlə insanlarin diqqətini cəlb etmişdir. Bu il Həsən Seyidbəylinin anadan olmasının 100 illiyi tamam olur. Bu münasibətlə, Həsən Seyidbəylinin 100 illik yubileyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidenti Sərəncam imzalayıb.***



Sərəncama əsasən, Azərbaycan kinematoqrafiyasının inkişafında təqdirəlayiq xidmətlər göstərmiş Xalq artisti Həsən Seyidbəylinin anadan olmasının 100-cü ildönümünün qeyd olunmasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinin, Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqının və Azərbaycan Yazıçılar Birliyinin təkliflərini nəzərə almaqla, xalq artisti Həsən Seyidbəylinin 100 illik yubileyinə həsr olunmuş tədbirlər planı hazırlanıb həyata keçiriləcək.

Qeyd edək ik, Həsən Seyidbəyli 22 dekabr 1920-ci ildə Bakı şəhərində anadan olmuşdur. Burada 132 saylı şəhər orta məktəbini bitirmiş, 1938-1939-cu illərdə Leninqrad Kino Mühəndisləri İnstitutunda, 1943-1951-ci illərdə Moskvada Ümumittifaq Dövlət Kinematoqrafiya İnstitutunun kinorejissorluq fakültəsində təhsil almışdır. “Azərbaycanfilm” kinostudiyasında kinorejissor, 1963-1980-ci illərdə Azərbaycan Kinematoqrafçılar İttifaqının katibi və sədri vəzifəsində işləmişdir. “İmtahan”, “Qızıl axtaranlar”, “Bağlı qapılar” adlı dram əsərləri Azərbaycanda və xaricdə səhnəyə qoyulmuşdur. “Kür sahillərində” (1953), “Bizim Astrada” (1956), “Telefonçu qız” (1960) povestləri, “Cəbhədən-cəbhəyə” (1961), “İllər keçir” (1973, İ.Qasımovla birgə), “Tərsanə” (1975), “Çiçək” (1978) romanları, “Dəniz cəsurları sevir” (1954), “Sən nə üçün yaşayırsan” (1959, hər ikisi İ.Qasımovla birgə) pyesləri müasirlərinin əməyindən, mənəvi-əxlaqi saflığından bəhs edir. “Uzaq sahillərdə” (1954, İ.Qasımovla birgə) romanı Sovet İttifaqı Qəhrəmanı M.Hüseynzadəyə həsr olunmuşdur. Onun həyat həqiqətlərinə sədaqətlə yaradılan və mənəvi zənginlik, əxlaqi saflıq, dərin zövq aşılayan uğurlu ekran əsərləri, xüsusilə “Nəsimi” tarixi bədii filmi milli kinematoqrafiyanın nailiyyətləri sırasında özünəməxsus layiqli yer tutur. Əsərləri bir sıra xarici dillərə tərcümə edilmişdir.

Həsən Seyidbəyli ictimai xadim kimi də Azərbaycan kinosunun inkişafına böyük təkan vermiş, 1963-1975-ci illərdə Azərbaycan Kinematoqrafçılar İttifaqı İdarə heyətinin I katibi, 1975-1980-ci illərdə sədri vəzifəsində çalışmışdır. Həsən Seyidbəyli



ssenari müəllifi olduğu və rejissor kimi quruluş verdiyi yüksək bədii keyfiyyətə malik, eləcə də ifadə vasitələrinin rəngarəngliyi və süjet xəttinin dolğunluğu baxımından seçilən filmlərlə Azərbaycanın kino sənəti salnaməsinə yeni səhifələr yazmışdır. Həsən Seyidbəyli Azərbaycan Kinematoqrafçılar İttifaqına rəhbərlik etdiyi uzun illər ərzində dünya kinosunun qabaqcıl təcrübəsindən lazımınca bəhrələnməklə respublikada kinematoqrafiya fəaliyyətinin təşkilinə və kino sənətinin inkişafına əhəmiyyətli töhfələr vermişdir. Meydana gətirdiyi sanballı nəsr nümunələri Həsən Seyidbəyliyə ədəbiyyat aləmində geniş şöhrət qazandırmışdır. Filmləri Ümumittifaq Kino festivallarında mükafat və diplomlara layiq görülmüşdür.

***Zümrüd BAYRAMOVA***

# “Azərbaycan regionda güc və söz sahibidir”



“Bu günlərdə qondarma rejimin rəhbərinin Gəncəni hədəf seçərək sərsəm bəyanat verməsi daxili təlatümdən yaranan bir haldır. Çünki düşmən yaxşı bilir ki, bunun üçün onların elə bir potensialları yoxdur. Eyni zamanda Azərbaycan müasir havadan müdafiə sistemləri ilə təmin edilib”. Bunu SİA-ya millət vəkili Cavid Osmanov deyib.

Deputatın sözlərinə görə, dövlətimizin təhlükəsizliyi hər hansı oyuncaq qurumların hədəfi olacaq səviyyədə deyil: “Azərbaycan regionda güc və söz sahibidir. Hansısa bir oyuncaq və qondarma qrumun rəhbərinin ölkəmizin strateji obyektlərini və şəhərlərini hədəf alaraq daxili auditoryaya hesablanmış isterik bəyanatlar verməsi isə heç bir məntiqə sığmır. Bu adamlar düşünmürmü ki, Qafqazın ən böyük hərbi güc mərkəzi Azərbaycandır”.

C.Osmanov bildirib ki, bu cür axmaq təşəbbüs belə onlar üçün hansı fəlakətlərə səbəb ola bilər, bunu sözsüz bilməmiş deyillər: “Sadəcə olaraq düşmən tərəfi son zamanlar regionda və beynəlxalq müstəvidə düşdükləri çətin psixoloji durumdan çıxış yolları axtarırlar. Bu çıxış yolu isə onların işğal etdikləri Azərbaycan torpaqlarından qeyi-şərtsiz çıxmaları müqabilində mümkün ola bilər. Çünki bu gün Ermənistan iqtisadi-siyasi müstəvidə blokada vəziyyətindədir. Pandemiyanın isə erməni cəmiyyətinə təsirlərindən danışmağa ehtiyac yoxdur. Siyasi oyunlarla insanların etirazını başqa səmtə yönəltməyə çalışan Ermənistan rəhbərliyi artıq nə danışdıqlarının belə fərqində deyillər”.

# Altı ayda ölkənin xarici ticarət dövriyyəsi 11,7 milyard dollar olub




Gömrük orqanlarında qeydiyyatı aparılmış, lakin gömrük rəsmiləşdirilməsi tam başa çatdırılmamış ixrac olunan xam neft və təbii qazın statistik qiymətləndirilmiş dəyəri nəzərə alınmaqla cari ilin yanvar-iyun aylarında xarici ticarət dövriyyəsi 11 milyard 750,2 milyon ABŞ dolları, o cümlədən ixracın dəyəri 6 milyard 760,7 milyon dollar, idxalın dəyəri 4 milyard 989,5 milyon dollar təşkil edib.

Dövlət Statistika Komitəsindən AZƏRTAC-a bildirilib ki, nəticədə 1 milyard 771,2 milyon dollarlıq müsbət ticarət saldosu yaranıb. 2019-cu ilin yanvar-iyun ayları ilə müqayisədə xarici ticarət dövriyyəsi faktiki qiymətlərlə 30,3 faiz, real ifadədə 20,5 faiz, o cümlədən idxal 42,8 faiz, ixrac isə 4,6 faiz azalıb. Dövlət Gömrük Komitəsindən daxil olmuş məlumatlara əsasən, xarici ticarət dövriyyəsinin 89,1 faizi İtaliya, Türkiyə, Rusiya, Çin, Ukrayna, ABŞ, Almaniya, Hindistan, İsrail, Gürcüstan, Yunanıstan, Xorvatiya, Çexiya, Vyetnam, İspaniya, İran, Tunis, Birləşmiş Krallıq, Fransa, Avstriya, Portuqaliya, İsveçrə ilə aparılmış ticarət əməliyyatlarının payına düşüb.

# Dünyadan bixəbər Paşinyana əmanət edilən Ermənistan...

***"Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Ermənistan tərəfindən səslənən bütün əsassız fikirlər tarixi reallıqları, münaqişənin əsas mahiyyətini əks etdirmir. 2019-cu ilin oktyabr ayında Prezident İlham Əliyev "Valday" Beynəlxalq Diskussiya Klubunun toplantısında, həmçinin, oktyabr ayının 11-də MDB dövlət başçılarının məhdud tərkibli Aşqabadda baş tutan iclasındakı çıxışında, 2020-ci ilin fevral ayının 15-də Münhen Təhlükəsizlik Konfransı çərçivəsində aparılan panel müzakirələr zamanı Ermənistanın Baş nazirinə həm tarixdən, həm də beynəlxalq hüquqdan dərs keçdi.***








Bu il iyunun 18-də Şərq Tərəfdaşlığı ölkələrinin videokonfransı zamanı keçirilən sammitdə də yenə Ermənistanın Baş naziri Paşinyanın faşist ideologiyası yürütdüyünü, Azərbaycana qarşı etnik təmizləmə, dövlət terrorizmi və işğalçılıq siyasətini ifşa etdi. Prezident bir daha Baş nazirə bildirdi ki, terrordan, enik təmizləmədən, işğaldan danışarkən o sussuz və sakitcə yerində otursun, bu barədə danışmasın. Bütün bunların fonunda, təsadüfən hakimiyyətə gəlmiş Ermənistan rəhbərinin BBC-nin "Hard Talk" verilişinə verdiyi müsahibədə səsləndirdiyi ritorik çıxışlar isə ümumiyyətlə gülünc idi". Bu sözləri SİA-ya açıqlamasında Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının professoru, siyasi elmlər doktoru Elçin Əhmədov deyib.

Onun sözlərinə görə, Paşinyanın həm tarixdən, həm beynəlxalq hüquqdan xəbərsiz olması, həm də ağlına gələni danışması və bəzən isə əsl həqiqətləri məcburiyyət qarşısında qalıb səsləndirməsi çaşqınlıq sayıla bilməz: "Münhendəki çıxışında da Paşinyan Dağlıq Qarabağın Azərbaycan ərazisi olduğunu deyir, lakin, sonra səhv etdiyini bildirir. Əslində isə tarixi qərara əsasən bildirilir ki, Azərbaycan hüdudlarında Dağlıq Qarabağ Muxtar Vilayəti yaradılsın və Azərbaycan hüdudlarında saxlanılsın. Paşinyan da məcbur olub, həmin ifadədən istifadə edir, sonra isə bildirir ki, burada "Ermənistana verilsin" olmalı idi. Lakin, tarixi həqiqətlərə əsaslanaraq deyə bilərik ki, belə bir ifadə olmayıb. Bu həqiqətləri danmaq mükün deyil. Sonuncu müsahibəsində də Dağlıq Qarabağ əhalisinin sayı ilə bağlı açıqladığı fikirlər, tarixə yenidən qayıtması, lap qədimdən Artsaxdan danışması onun ümumiyyətlə bu məsələlərdən xəbərsiz olduğunu göstərdi".

Siyasi elmlər doktoru bildirib ki, Ermənistanda uzun illər davam edən həm sosial, həm iqtisadi, həm də siyasi proseslər onu göstərir ki, hazırda Ermənistan hakimiyyəti və Nikol Paşinyan böhranın içərisində çabalayır, xüsusilə də, burada "iki stulda oturmaq" taktikası nəzərə çarpır: "Ermənistanda iki il əvvəl hakimiyyət çevrilişindən sonra kütləvi informasiya vasitələrində Rusiyaya qarşı açıq çağırışlar var idi və qərb yönümlü yazılar daha çox idi. Bu gün hakimiyyətdə Soros Fondunun idarələrini özlərinin iş otağına çevirmiş və oradan təlimat almış adamların təmsil olunması bunu bir daha təsdiq edir. Bu, idarəçilik təcrübəsi olmayan, tarixdən, beynəlxalq hüquqdan xəbərsiz Nikol Paşinyanın, həmçinin, sərhəddə baş verən hadisələrdən sonra Ermənistanın Diasporlarla İş üzrə Dövlət Komitəsinin ofisində təmizləmə işi aparması, erməni lobbisinin Azərbaycan və türk diaspor təşkilatları qarşısında çıxılmaz vəziyyətə düşməsi, Ermənistanın Diaspora Təşkilatlarında ciddi problemlərinin yarandığını göstərirdi".

Elçin Əhmədov vurğulayıb ki, Ermənistanın Baş naziri "Hard Talk" verilişində özünü Münhen Təhlükəsizlik Konfransında olduğu kimi nəinki rüsvay etdi, Ermənistanın özündə də anlaşıldı ki, bu adamın Ermənistan rəhbərliyində təmsil olunması yalnış bir addım olub: "Paşinyanı bir rəhbər kimi ona görə seçmişdilər ki, əvvəlki hakimiyyət sistemindən (söhbət 1998-ci ildən 2018-ci ilə qədər olan rejimdən gedir) xilas olsunlar. Buna görə, xalq Paşinyanın arxasınca getdi. Ona görə yox ki, Paşinyan dahi siyasətçi idi. Paşinyanın ümumiyyətlə olan-bitəndən xəbəri yoxdur. Ermənistanın tarixindən xəbəri yoxdur. Buna görə də, Paşinyan müsahibəni aparan jurnalistin obyektiv sualları qarşısında tamamilə aciz idi. Ermənistanın Azərbaycan ərazilərini işğalı faktı qarşısında jurnalistin onu çıxılmaz vəziyyətə salması, Paşinyanın ritorik çıxışları onu göstərdi ki, Ermənistan cəmiyyəti sadəcə anti-Azərbaycan, antitürk mövqeyi tutur. Erməni lobbisinin timsalında yalnız bunu deyə bilərik. Onlar həmişə anti-türk və anti-Azərbaycan mövqeyi ilə seçiliblər. Prezident İlham Əliyev Tərtərə səfəri zamanı çıxışında da qeyd etdi ki, bütün Azərbaycan ictimaiyyəti, eləcə də, dünya azərbaycanlıları bilməlidir ki, Ermənistanda hakimiyyət dəyişə bilər, lakin, bu ölkənin terrorçu, faşist ideologiyasına əsaslanan dövlət idarəçiliyini həyata keçirən siyasəti dəyişməz olaraq qalır. Bunu bütün dünya bilməlidir".

Professorun fikrincə, bu işğalçılıq siyasətinin davam etdirilməsində təkcə Ermənistan günahkar deyil, eyni zamanda, bu məsələni həll etmək üçün yaradılmış ATƏT-in Minsk qrupunun fəaliyyətsizliyi də özünü göstərir: "Minsk qrupunun mücərrad bəyanatları, təcavüzkar ilə təcavüzə məruz qalanı eyni tutması onu göstərir ki, ATƏT-in Minsk qrupunun fəaliyyəti turist səfərlərindən başqa heç nəyi xatırlatmır, verdiyi bəyanatlar isə işğal rejimini qoruyub saxlamağa çalışan Ermənistanın mövqeyi ilə tamamilə üst-üstə düşür. Bildirilir ki, Azərbaycan və Ermənistan nəyə hazırdırsa, biz də ona tərəfdarıq. Əgər, biz razılaşa bilsəydik, onda Minsk qrupu nəyə gərəkdir? Bu, tərəfsiz vasitəçilik missiyasını öz üzərinizə götürən qurumun bəyanatları onların tərəfsizliyini şübhə altında qoyur. Ona görə ki, Dağlıq Qarabağı bir dəfə də olsun Azərbaycan ərazisi kimi, Ermənistanı isə bu əraziləri işğal etmiş ölkə kimi qəbul etməyiblər, bunu verilən bəyanatlarda görmürük. Bunu görmədiyimiz müddətdə, heç bir beynəlxalq təşkilatdan, bu cür vasitəçilərdən münaqişənin nizama salınmasında ədalət gözləmək absurddur. Ona görə də, Prezident İlham Əliyevin dediyi kimi, biz yalnız Azərbaycan xalqına və Azərbaycan Ordusuna arxayın olmalıyıq. Prezident İlham Əliyev onu da bildirib ki, ATƏT-in Minsk qrupunun həmsədrləri BMT-nin Nizamnaməsini diqqətlə oxumalıdırlar. Burada Azərbaycanın öz ərazilərini azad etmək hüququna malik olduğu qeyd edilib. Bu, 51. maddədə öz əksini tapıb və Azərbaycan 51. maddədən istənilən vaxt istifadə edəcək, çünki, bu, artıq qaçınılmazdır".

***Nigar Məmmədova***

# Miqran Akobyan: "Paşinyan rejimi təhlükəli Soros planlarına xidmət edir"



"Ermənistan hakimiyyəti qanunun gücü ilə Rusiya telekanallarını ictimai multipleksdən çıxarmaq niyyətindədir. Tezliklə Ermənistan sakinləri illər boyu yayımlanan Rusiya kanallarını, o cümlədən Ermənistanda geniş izləyicisi olan "Birinci Kanal", "Rusiya" və "Kultura" kanallarını adi kanallar vasitəsilə izləyə bilməyəcəklər." Bu sözləri ictimai-siyasi xadim Miqran Akobyan öz Facebook səhifəsində yazıb. "Nikol Paşinyan rejimi bu qərarı "əsaslandırır" ki, guya ictimai multipleksdə yalnız erməni telekanalları olmalıdır. Digərləri şəxsi multipleksdə (hansı ki, mövcud deyil) və ya xüsusi kabel şəbəkələrində ola bilər.

Ağılsız bir adam da başa düşür ki, İngilis telekanallarına gəlincə, bütün bunlar illüziyadan başqa bir şey deyil. Çünki Ermənistandakı ictimai multipleksdə illərlə yayımlanan CNN-in sıfır səviyyəsində auditoriyası var. Bunlar dil, mədəniyyət və sivilizasiya ilə bağlı həqiqətlərdir. Rus dilindəki kanallar isə, xüsusən "Birinci Kanal" və "Rusiya" kanalı çox geniş auditoriyaya malikdir.

Bu addımla Nikol Paşinyan rejimi anlaşılmaz və təhlükəli Soros planlarına xidmət edərək, Ermənistan-Rusiya hərbi-siyasi ittifaqını qırmaq, Ermənistanı Rusiyadan bir daha uzaqlaşdırmaq niyyətində olduğunu nümayiş etdirir. Əlbətdə ki, Nikol Paşinyan rejimi Rusiya televiziya kanallarının ictimai multipleksindən çıxarılmasını suverenliyin möhkəmlənməsinə, erməni dilinin mövqeyinin möhkəmlənməsinə əsaslandırmağa çalışacaq. Amma hamı başa düşür ki, Sorosun və onun fondunun planı, əmri ilə hakimiyyətə gələn bir qrup insan suverenlik və erməni kimliyinin güclənməsi barədə danışa bilməz və onlar Ermənistan məxsus milli hər şeyə qarşı müharibə elan edib.

Sifarişçilərin diktə etdiyi Paşinyan rejimi Ermənistan əhalisini rusdilli sivilizasiya-informasiya məkanından çıxartmaq, Rusiyada yaşayan 3 milyona yaxın erməninin ortaq bir mədəniyyət və informasiya sahəsində yaşamaq perspektivlərindən məhrum etmə kimi qarşılarına qoyulan vəzifəni icra edir", deyə Miqran Akobyan bildirib.

***İnam Hacıyev***

# Erməni tapşırığı yerinə yetirənlər...

## Yaxud Azərbaycan hakimiyyətini şərləmək istəyənlər haraya qədər...

***Son günlər demoqoqdar yuvası olan "Milli Şura" Azərbaycan dövlətinin uğurlarını, əldə etdiyi nailiyyətləri, işğalçı Ermənistanın törətdiyi təxribatlara layiqli cavabları həzm edə bilməyərək ardıcıl olaraq gecə-gündüz böhtanlı çıxışlar etməkdədirlər. Bu olan işdir, çünki satqınlar yuvası olan "Milli Şura" və AXCP sədri Əli Kərimlinin pultu ilə idarə olunan, bu yaşında özününü qiymətini elə danışdığı kimi dəyərləndirən Cəmil Həsənli, bütün varlığını satan və satılan AXCP sədri Əli Kərimli və xarici ölkələrdə zibilliklərdə sülənən satqın viruslar Ermənistan mediasının irəli sürdüyü iddialarla sinxron çıxış etməsinin arxasında onların Qərbin bəzi ermənipərəst dairələri tərəfindən maliyyələşdirilməsi faktının dayandığını aydın şəkildə göstərməkdədirlər.***

Xüsusilə də, "Milli Şura"nın son videokonfransından yayılan görüntülərdə açıq şəkildə bildirilir ki, bu demoqoqlar yuvası olan qurumun əsas vəzifəsi Azərbaycan hakimiyyətini şərləməkdir. Bu etiraf bir daha onların əsl simasını və xislətini aydın nümayiş etdirir. Çünki 26 ildən çox zamandır ki, elə əlilər, cəmillər, isalar, ariflər... satqın olaraq qalıb, ölənə qədər də belə qalacaqlar.

Ancaq etiraf edək ki, bu satqınlar çoxdan ölüblər, bu gün əl-əyağa dolaşan viruslardır, az qalıb bu viruslar da məhv olacaq. Bu viruslar ölkədə hansı sahədə islahatlar aparılırsa, uğurlar əldə edilirsə hamısını öz "vəsiqə"lərinə yazırlar, deyirlər ki, "biz çağırış etməsəydik bu problem həll olunmayacaqdı". Axı, siz kimsiniz ki? Sizi bu xalq qəbul etmir, etməyib. Özünüz dediyiniz kimi tryapkasınız, istifadəyə gərəksiz tryapka! İndi də terrorçu, təcavüzkar Ermənistanın müdafiəsinə yox, öz qrantlarınızın müdafiəsinə qalxdığınızı nümayiş etdirirsiniz.

Ən gülünc məqam isə, hər sözlərinin başında olmayan vicdanlarına, namuslarına and içirlər. Özləri, necə bunu görürlərmi?...

### "Sapı özümüzdən olan baltalar" olmayan namuslardan danışmağa...

Son günlər düşmən təbliğatında bir alətə çevrilən Vətəni, torpağı, xalqı, dövləti qrantlara satan Əli Kərimli, Sevinc Osmanqızı, Arif Məmmədov, Vidadi İsgəndərli, Cəmil həsənli, Gültəkin Hacıbəyli və bu kimi "sapı özümüzdən olan balta"lar "baş verənlərdə ermənilər yox, azərbaycanlılar, bizim diaspora və səfirliyimiz günahkardır" kimi çıxışları məcazi mənada erməni dəyirmanına su tökməkdir. Avropada mühacir həyatı yaşayan Vidadi İsgəndərli ermənilərin işğalçılıq siyasətini dəstəkləyən çıxış edərək deyir: "Vicdanıma and olsun ki, ermənilər bizə ziyan vurmayıb. Əgər bu gün müharibə başlasa, vicdanıma and olsun ki, Fransa ordusunun silahlı əsgəri olmağa hazıram. Amma İlham Əliyev Qarabağın azadlığı uğrunda müharibə elan etsə, mən ermənilərlə döyüşməyə getməyəcəm".

Bax budur mənəviyyatsızlıq, alçaqlıq, nankorluq. Düz deyirsən, sənin kimi viruslar vuruşmağı bacara bilməz. Çünki sənin kimilər artıq çoxdan ayaqlar altında qalıb, tapdalanıb..

Bu xora qoşulanlardan biri də Əli Kərimliyə mətbuat katibliyi edən Sevinc Osmanqızının çıxışındakı tezislərə diqqət edək: "Təhlükə yoxdur, sivil mübarizə aparılmaqdadır, mən sizi inandırıram ki, heç erməni tərəfində belə bir niyyət yoxdur. Bu gün bu sivil mübarizəni pozan Azərbaycan tərəfidir. Rəsmi Bakıdır bu qarşıdurmanı təşkil edən. Erməni həmkarımla sualları cavablandırırdım.



Azərbaycanlı gəncdir, müsahibə verir və deyir ki, əlimizdən gələn qədər vuruşduq, savaşdıq...

Onlar Azərbaycanın imici üçün nəsə yaxşı bir iş görmüş olurlarmı? Baxın, adam deyir ki, əlimizdən gələn qədər vuruşduq, savaşdıq. Nədən ötrü vuruşdunuz və savaşdınız? Azərbaycanın imicinin xuliqan, bandit olduğunu təsbit etməkdən ötrümü savaşdınız? Siz nə qazandınız? Və nəyə görə onlar səfirliyin müdafiəsinə qalxmalıdırlar?

Mən davanı kimin başlatdığına girməyəcəm. Əhəmiyyətli məsələ də deyildir. Bu, Azərbaycanın milli maraqlarının müdafiəsi demək deyildir. Qarabağ bura deyildir. Savaşlar Qarabağda gedir, savaş Azərbaycanla Ermənistan sərhədində gedir. Siz Azərbaycan səfirliyini müdafiə etmək üçün ora getməyinizlə vətənə xidmət etmiş olmursunuz. Siz burada vətənpərvərlik görürsünüzmü? Vətənpərvərliyin "V" hərfini görürsünüzmü? Bu şüvənlikdir, vətənşüvənlikdir"...

S.Osmanqızıdan bunu eşitmək heç də təəccüb doğurmur. Çünki bu o S.Osmanqızıdır ki, atası şəhid olan, həm də ermənilər tərəfindən öldürülməsinə belə heç tükü belə tərpənmirsə, hansı əxlaq, mənəviyyat, vicdan, namus gözləmək olar? Və yaxud da sabiq səfir Arif Məmmədovdur. O da deyir ki, ermənilərin heç bir günahı yoxdur, baş verənlərin yeganə günahkarı Azərbaycanın xüsusi xidmət orqanlarıdır. Elə bu fikirdən görünür ki, öz ölkəsinə dönük çıxan eks-səfir, əslində kimə xidmət edir. Arif Məmmədov çıxışlarında həqiqətə uyğun olmayan, Azərbaycana qarşı qarayaxma kampaniyasına işləyən fikirlər səsləndirir. O iddia edir ki, guya bir sıra ölkələrdə azərbaycanlılarla ermənilər arasındakı münaqişənin səbəbkarı Azərbaycan hökumətidir və bununla hazırkı rəhbərlik daxili problemlərdən fikirləri yayındırmağa çalışır.

### "Azərbaycan xalqını, dövləti-ni təhqir edənlər cinayət məsuliyyətinə cəlb olunmalıdır"

YAP İcra katibinin müavini, millət vəkili Siyavuş Novruzov bildirib ki, Azərbaycan xalqını, dövlətini təhqir edənlər cinayət məsuliyyətinə cəlb olunmalıdır: "Milli sözünü də biabır edən "Milli Şura" adlı dərnək keçirdikləri videokonfrans zamanı Azərbaycan xalqına qarşı hörmətsizlik edib. Onlar öz əxlaqlarına uyğun məsələlərin müzakirəsinə həsr etdikləri görüşdə xalqın aşağılanmasına yol veriblər. Onlar barəsində tədbirlər görülməlidir. Xalqı təhqir edirlər ki, insanlar seriala baxır, bunlara baxmır. Demək, insanlar serialı sizdən üstün tutur, türk serialı xalq üçün Əli Kərimlinin sərsəmləməsindən daha üstündür". S.Novruzov qeyd edib ki, hər bir deputat məsələyə münasibət bildirməlidir:

"Azərbaycan xalqına qarşı aşağılayıcı fikirlər cinayət məsuliyyəti ilə ölçülməlidir. Biz xalqın aşağılanmasına imkan verə bilmərik. Hesab edirəm ki, qanunları sərtləşdirməliyik. Onlar özlərini ifşa etdi". Göründüyü kimi, Azərbaycana nifrət edən bu şəxslərin əsl üzü budur - "Vətən üçün pis olan, mənə faydalıdır". Və şəxsi maraqlarını dövlətin və xalqın maraqlarından üstün tutduqları üçün mənəvi nöqteyi-nəzərdən xəyanətkardan və fəraridən başqa biri deyillər. Yaxın zamanlarda isə etdiyiniz cinayətlərin qanun və xalq qarşısında cəzasını çəkəcəksiniz! Və çağırışlarınız da küt baltalar kimi, nəticəsiz olacaq!

***Rəfiqə HÜSEYNOVA***

---

### Sosial şəbəkələrdə narkotik vasitələri təbliğ edən daha bir şəxs saxlanıldı



Sosial şəbəkələrdə narkotik vasitələrin qəbulunu təbliğ edən videolar yayan daha bir şəxs saxlanılıb. Sosial şəbəkələrdə profil yaradaraq narkotik vasitələrin qəbulunu təbliğ edən videolar yayan daha bir şəxs saxlanılıb.

Trend-in məlumatına görə, Baş Narkotiklərlə Mübarizə İdarəsinin Cəlilabad Rayon Polis Şöbəsinin əməkdaşları ilə birgə həyata keçirdikləri əməliyyat-axtarış tədbiri nəticəsində həmin profil səhifəsinin sahibi, Cəlilabad rayonu Privolnoye kənd sakini Könül Ağayeva saxlanılıb.

O, ifadəsində qeyd edilən sosial şəbəkədə narkotik vasitələrin qəbulunu təbliğ etdiyini etiraf edib. Təyin edilmiş ekspertizaların nəticəsində Könül Ağayevanın mütəmadi olaraq narkotik vasitə və psixotrop maddələr qəbul etdiyi məlum olub. Könül Ağayeva barəsində İnzibati Xətalar Məcəlləsinin 206-cı maddəsi ilə protokol tərtib edilib. Onun törətdiyi qanun pozuntusuna hüquqi qiymət verilməsi üçün barəsində toplanan materiallar Cəlilabad Rayon Məhkəməsin göndərilib.

## Bu gündən məhkəmələrin fəaliyyəti tam bərpa olunur

***Bu gündən sərt karantin rejimi tətbiq edilən şəhər və rayonlarda məhkəmələrin fəaliyyəti tam bərpa olunur. Ali Məhkəmədən SİA-ya verilən məlumata görə, Azərbaycan Respublikasında koronavirus (COVİD-19) infeksiyasının yayılması təhlükəsinin qarşısının alınması ilə əlaqədar Ümumdünya Səhiyyə Təşkilatının tövsiyələrini və Azərbaycan Respublikasının ərazisində karantin rejiminin yumşaldılması ilə bağlı Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarlarını nəzərə alaraq məhkəmələrə aşağıdakılar tövsiyə edilsin:***

**1.** 2020-ci il 20 avqust tarixindən etibarən sərtləşdirilmiş xüsusi karantin rejiminin tətbiq edildiyi Bakı, Cəlilabad, Gəncə, Masallı, Mingəçevir, Sumqayıt, Yevlax şəhərlərinin və Abşeron, Bərdə, Goranboy, Göygöl, Xaçmaz, Salyan rayonlarının inzibati ərazisində fəaliyyət göstərən məhkəmələrdə bütün işlərin qəbulu və baxılması tam şəkildə bərpa olunsun.

**2.** Azərbaycan Respublikasının bütün məhkəmələrində:

**2.1** Hakimlərin və məhkəmə aparatı işçilərinin iş rejimi ilə bağlı Nazirlər Kabineti yanında Operativ Qərargahın tövsiyələrindən irəli gələn digər zəruri məsələlər həll olunsun;

**2.2** Vətəndaşların qəbulu dayandırıldığından qəbul yalnız telefon, mobil və internet rabitəsi vasitəsi ilə həyata keçirilsin;

**2.3** Məhkəmə fəaliyyəti Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargah tərəfindən müəyyən olunan zəruri sosial davranış və sanitar-epidemioloji qaydalara uyğun həyata keçirilsin. Hakimlərin, məhkəmə aparatı işçilərinin və vətəndaşların məhkəmə binalarında olduqları müddət ərzində qoruyucu maskalardan istifadə etmələri, şəxsi gigiyena, tibbi-profilaktik qaydalara, eləcə də sosial məsafəyə riayət etmələri təmin olunsun. Məhkəmələrin inzibati binalarında mütəmadi olaraq dezinfeksiya işləri aparılsın və qoruyucu-gigiyenik vasitələrlə təchiz edilsin.



# Sədaqət Vəliyeva: "Əli Kərimli məsuliyyətə cəlb edilməlidir"

***"Belarusda baş verən hadisələrdən iştaha gələn radikal müxalifət xarici kəşfiyyat qurumlarının göstərişləri ilə açıq şəkildə dövlətə, xalqa qarşı çağırışları həyata keçirirlər. Təsadüfi deyil ki, AXCP sədri Əli Kərimli "blokadada olsa da" aktivləşib və "Osmanqızı tv", "Azərbaycan saatı" kimi youtube kanallarında insanları kütləvi şəkildə itaətsizliyə dəvət edir, dövlət çevrilişinə cəhdlərini davam etdirir.***



Biz onun bu cür anti-milli fəaliyyətini 2003-cü ildə Gürcüstanda baş verən inqilabdan tutmuş son 17 il ərzində müxtəlif ölkələrdə yaşanmış siyasi proseslərə qədər hadisələrdən həvəsə düşüb eyni taktika ilə dağıdıcılığı təbliğ etməsini görmüşük. Ona görə də insanları kütləvi itaətsizliyə çağıran Əli Kərimli kimilərin əməllərinə hüquqi qiymət verilməli və onlar məsuliyyətə cəlb edilməlidirlər". SİA-nın verdiyi məlumata görə, bunu Yeni Azərbaycan Partiyası Nizami rayon təşkilatının sədri, Milli Məclisin deputatı Sədaqət Vəliyeva deyib.

Sədaqət Vəliyeva bildirib ki, ölkənin əsas müxalifət partiyaları həyata keçirilən islahatları dəstəklədiyi, seçkilərin demokratik inkişafın əsas vasitəsi hesab etdiklərini bildirdikləri halda radikal müxalifət tam əks prosesi təbliğ edir, fəaliyyətini dağıdıcılıq üzərində qurmağa, kütləvi dağıntıların həyata keçirilməsinə çalışır: "Məsələn, Əli Kərimli ötən gün "Osmanqızı tv" youtube kanalında çıxışı zamanı çox savadsız bir formada Azərbaycanı Sudan, Liviya, Misir, Suriya, Venesuela kimi ölkələrlə müqayisə edir. Əslində, onun bu müqayisəsi birbaşa Azərbaycan xalqına təhqirdir. Əgər bu gün Sudan 2 yerə parçalanıbsa, Ukrayna və Gürcüstan ərazisinin 50 faizini itiribsə, Suriyada kimin idarəetmə ilə məşğul olduğu bilinmirsə, Venesuelada 10 kiloqram pula bir çörək alınırsa, Misirdə, Tunisdə hər gün hökumət dəyişirsə, bu vəziyyəti Azərbaycana transformasiya etmək, arzulamaq nə qədər məntiqlidir, millilikdir? Bütün bunlar onu göstərir ki, Əli Kərimli bu gün dövlətimizin, dövlətçiliyimizin məhv edilməsində maraqlıdır. Buna bəlkə də heç təəccüblənmək də lazım deyil. Çünki, oğlu Türkel Kərimli ABŞ-da, qızı Selcan Kərimli Britaniyada, kiçik oğlu da Londonda çox bahalı təhsil alır, lord həyatı sürürlər. Sual olunmalıdır ki, necə olur Əli Kərimli 20 ildir işsizdir, amma övladları, özü bahalı həyat tərzi sürür, mühafizəçilərlə gəzir, son model maşınlardan istifadə edir? Necə ola bilər ki, onun övladlarının xaricdəki gündəlik yaşayışı, böyük xərcləri belə çox asanlıqla qarşılanır? Əli Kərimli hər gün şəffaflıqdan və korrupsiyadan danışır. Bəlkə, bir gün qorxmadan ictimaiyyət qarşısına keçsin və bu suallara cavab versin. İnanmıram çıxsın. Çünki onun işi ancaq monoloqdan ibarətdir".

Sədaqət Vəliyeva vurğulayıb ki, Ermənistanla olan gərgin münasibətlər fonun Əli Kərimlinin fəallaşması və açıq şəkildə insanları təxribata sürükləməsi diqqətsiz qalmamalıdır. Mütləq şəkildə onun bu çıxışlarından doğan dağıdıcılıq və radikalizm əməllərinə hüquqi qiymət verilməli, qanun çərçivəsində cəzasını almalıdır.

# "Hər bir qəpiyin səmərəli və məqsəqyönlü xərclənməsi xüsusi önəm daşımalıdır"

"Təqvimə baxıram, avqust başa çatmaqdadır. Yeni tədris ilinin başlanmasına sayılı günlər qalır. Yaxşı vaxtlarda, pandemiyadan əvvəlki illərdə, şəhərlərimizdə, qəsəbələrimizdə məktəb bazarları təşkil olunar, valideynlər uşaqlarını yanlarına alıb məktəbə hazırlıq görərdilər... Aylardır başımızın üstünü kəsdirən koronavirus həyatımızın axarını elə dəyişib ki, məktəb, sinif otağı az qala uşaqlarımız üçün yuxu kimi görünür. Təhsil ocaqlarının açılıbaçılmayacağına dair qərar hələ yoxdur". Bunu SİA-ya Yurddaş Partiyasının sədri Mayis Səfərli deyib.

Onun sözlərinə görə, məktəblərin bağlı qalmasının uzadılması məsələsində də vahid fikir yoxdur: "Yeni Təhsil nazirinin Milli Məclisin müvafiq komitəsinin üzvlərinin və mütəxəssislərin iştirakı ilə keçirdiyi müzakirələrdə də bir qərar hasil olmadı. Mətbuatda bildirildiyi kimi, orada müxtəlif fikirlər səsləndi. Tədris ilinin onlayn qaydada davam etdirilməsindən tutmuş, epidemioloji qaydalara əməl etmək şərti ilə dərslərin məktəb otaqlarında aparılması, tədris həftəsinin və dərs saatlarının qısaldılmasına qədər müxtəlif variantlar ortaya qoyulmuşdur.



Mətbuatda da, sosial şəbəkələrdə də bu problemlə bağlı qızğın debatlar gedir. Fikirlər, düşüncələr, təkliflər çoxdur. Ağlabatanı da var, yersiz görünəni də. Məsələn götürək, dərslərarası fasilələrin uzadılması və şagirdlərin tənəffüsləri açıq havada keçirməklə bağlı təklifi. Siz inanırsınız ki, yüzlərlə şagird eyni vaxtda həyətə çıxarkən tövsiyyə olunduğu qaydada maska taxacaq, məsafə saxlayacaqlar? Böyükləri heç buna vadar etmək olmur, o ki, qaldı uşaq və yeniyetmələri. Gərək hər məktəbə bir polis bölüyü ayrılsın ki, bu işin öhdəsindən gəlsinlər. Əks halda, yoluxmalar qaçılmazdır. Epidemioloqlar birmənalı olaraq təsdiq edirlər ki, infeksiya insanların kütləvi toplaşdığı yerlərdə daha çox və sürətlə yayılır. Təhsil ocaqları da belə məkanlardandır.

Ölkəmizin koronavirusla mübarizədə əldə etdiyi müsbət nəticələrin səbəblərindən biri təhsil ocaqlarının fəaliyyətinin dayandırılması ilə bağlı qərarın vaxtında verilməsi idi. Zənnimcə, qarşıdakı dərs ilinin də forma və məzmunu epidemioloji vəziyyətə bağlı olmalıdır. Bir valideyn kimi, mən də məktəblərin bağlı qalmasını xoş qarşılamıram, bunun təhsilimizin, maarifimizin keyfiyyətinə mənfi təsirindən çox narahatam. Lakin nə etməli, bu, təbii fəlakətdir. Prezident İlham Əliyevin də dediyi kimi, insanların həyatı və sağlamlığı hər şeydən üstündür.

Kütləvi peyvəndləmə aparılana qədər online təhsilin ən təhlükəsiz olduğu faktdır. Sadəcə, onu düzgün və səmərəli təşkil etmək və formalaşdırmaq lazımdır. Texniki məsələləri qabaqcadan yönünə qoymaq vacibdir. Ehtiyacı olan şagirdlər internet və planşetlərlə təmin olunmalıdır. Sual olunur, kim etməlidir? Əlbəttə, Təhsil nazirliyi. Dövlətimiz bu sahəyə yetərincə vəsaitlər ayırır. İndiki ekstremal şəraitdə hər bir qəpiyin daha da səmərəli və məqsəqyönlü xərclənməsi xüsusi önəm daşımalıdır".

# AXCP öz dövrünü başa vurub

## *Tahir Kərimli: "Cəmil Həsənlini ciddi siyasətçi kimi qiymətləndirmək olmaz"*

Müxalifət düşərgəsində elə partiya sədrləri var ki, onlar bir növ yedək funksiyasını yerinə yetirirlər. Yəni sədr olmalarına baxmayaraq başqa partiyaların və liderlərin siyasi maraqlarını yerinə yetirməyə çalışırlar. Misal kimi Cəmil Həsənlinin "Osmanqızı" Tv-yə açıqlamalarında özünü "Milli Şura"nın sədri kimi deyil, AXCP-nn sıravi üzvi, Əli Kərimlini isə lideri kimi təqdim etməsini göstərmək olar. Sual yaranır, C. Həsənlinin özünü aşağılaması və Ə.Kərimlini lideri olaraq özündən üstün formada təqdim etməsi nədən irəli gəlir? Vəhdət partiyasının sədri, millət vəkili Tahir Kərimli "Səs" qəzetinə açıqlamasında bildirdi ki, Cəmil Həsənli real vəziyyətə görə belə hərəkət edir: "Çünki o çox yaxşı başa düşür ki, artıq "Milli Şura" əvvəldən Əli Kərimlinin yanında bir məşvərət şurası xarakteri daşıyırdı. Xüsusilə "Milli Şura"nın rüsvayçı video konfranslarından sonra xalq arasında reytinqi hədsiz dərəcədə aşağı düşdü. Buna görə də, Eldəniz Quliyev və digərləri "Milli Şura"nı tərk etdilər. Belə olan halda "Milli Şura" artıq formal quruma çevrilib. Onlar cəmiyyətdə nüfuzlarını itirdiklərinə görə, o qədər önəm daşımırlar və ona görə də, C.Həsənli birbaşa elə AXCP-nin üzvi kimi Əli Kərimlinin qanadı altında olmaq məcburiyyətində qalır. Çünki doğurdan da, "Milli Şura"ya artıq xaricidən oturub belə sədrlik etməklə "Milli Şura" nəyin ki, bir addım irəli getməyib, demək olar ki, arzu olunmaz quruma çevrilib".

***Gülyana***



Təhmasib Novruzov

# Şeytanı daşlamağa Məkkəyə getməyə nə hacət?

***Müsəlmanın adətidir. Birinə əsəbləşəndə, ya işimiz tərs gətirəndə dişlərimizi qıcayıb hirslə şeytana lənət oxuyuruq. Bunun həm psixoloji mənası var, həm də dini. Psixoloji baxımdan bu hərəkət bizim səbrimizi bərkidir və biz xətadan qaçırıq. Dini mənası da odur ki, hirsli məqamda şeytan girər beyninə, səni nəyəsə vadar edər, lənət oxumaqla şeytanı qovub bu bəlanı özündən uzaqlaşdırırsan.***

Bizlər nə az, nə çox, düz yüz yetmiş il şeytanın padşahı iblisin yer üzündəki ən sadiq nökərlərinin əlinin altında inləməyə məcbur edilmişik. Gecə-gündüz də "lənət şeytana" deyib, səbrimizi basmışıq. Biri şimaldan, biri də cənubdan bizi əhatəyə alan bu iblis nökərlərinə qulluq edəedə iblis əhlini - şeytanı lənətləmişik. Rəbbim göydən baxıb və bizə qəzəbi tuturdu ki, ay zavallılar, siz orda şeytanın nökərlərinə qulluq göstərirsiniz, məndən də şeytana lənət istəyirsiniz?

Vaxt gəldi, zaman yetişdi, bu iblisin birindən canımızı qurtardıq. Daha doğrusu iç üzünü gördük, əsil şeytan olduğunu anladıq, hərəkətə keçdik, "sizdən hərəkət, məndən də bərəkət" deyən rəbbimiz də bizə "bərəkət payı" ərməğan elədi və içimizə doluşmuş şeytan sürüsünü qovub çıxardıq içimizdən.İndi hər vasitə ilə vurnuxur ki, yenidən qayıdıb içimizdə möhkəmlənsin. Bunun üçün də iki qüvvədən istifadə edir. Birinci qüvvə məlumdu. Şeytan nökərlərinin dabanyalayanı - hay tayfası. İkincisi də...

Bu dəfəki yazımıda demək istədiyim elə həmin ikincilərlə bağlıdı. Kimlərdi bunlar? Sapı özümüzdən olduğu hesab elədiyimiz kor baltalar! Bilmirəm, bəlkə də, ayıb olmasın, hansınınsa anası xətaya yol verib, kimdənsə (hətta ola bilər ki, haylardan) əldə edib. Amma, ən azı sənədlərində yazılır ki, filankəsin oğludu, azərbaycanlıdı və müsəlmandı. Amma əməllərinə baxırsan, nəinki azərbaycanlı, hətta Azərbaycana hörmət eliyən xalqın, bir az da dərinə getsək və bəzilərinin bəzi-bəzi cümlələrini nəzərə alsaq, heç Azərbaycanı sevməyən xalqın da nümayəndəsinin vurmadığı zərbələri vururlar bu millətə. Londonda, Vaşinqtonda, Parisdə, Münxendə, daha nə bilim hansı xarabada qalmışda oturub mənsub olduğu millətin yeganə ümid yeri olan Azərbaycan dövlətini söyən, bu dövləti ermənilərin və ermənipərəstlərin ayağına verən belə ikiayaqlıları necə insan hesab etmək olar, onu anlamıram.

Biri çıxıb deyir ki, ermənilər yox, azərbaycanlılar təxribat salır, sülhə təhdid yaradır. O biri deyir ki, xarici ölkələrdə ermənilərlə qarşıdurmanı yaradan azərbaycanlılardı, türklərdi. Bir başqası da... Yox, burda dayanıram. Sadaladıqca hirs vurur başıma, nə qədər şeytana lənət oxusam da, səbrimi basa bilmirəm ki, bilmirəm. Niyə, bilirsiniz? Bu danışanları başa düşdük. Artıq şeytanlar padşahı İblisin sərəncamındadırlar və İblisin sərəncamından qurtulmaları da, belə görünür ki, mümkün deyil. Bəs bu millətin ağıllı başları, ziyalı dediyimiz zümrəsi? Onlara nə olub? Görmürlərmi ki, beş-on nəfər "bizimki"ləri şeytanlar ələ alıb bizlərə qarşı hürdürür? Görmürlərsə, mənəvi gözləri tutulubsa, necə ziyalı adını üstlərində gəzdirirlər? Yox əgər mənəvi gözləri tutulmayıbsa, hər şeyi görüb də, seyr etməklə kifayətlənirlərsə, yaxud orda-burda, xəlvəti-xəlvəti danışırlarsa, lənət belə ziyalılığa! Millətin problemini görməyən də, görüb susan da, elə şeytana xidmət etmiş olur. Çıxıb nümayişkaranə şeytan nökərlərini lənətləmək əvəzinə, hirs başına vuranda "lənət şeytana" deyənlər, rəbbim sizin səsinizi eşitməz. Çünki biz ətrafəmizda bizim cildimizdə bizlərlə olan şeytana əl uzatmırıq, onun sifətini cırmırıq, amma tanrıdan göylərdə tüğyan edən şeytana lənət etməsini diləyirik.

Şeytana daş atmaq üçün dünyanın o başına - Məkkəyə gedirik. Amma ətrafımızdakı şeytanın gözünün üstündə qaşı olduğunu xatırlatmağa cəsarət etmirik. Bilmirəm, bəlkə sözlərim bir az kəskin oldu. Amma bu seyrçilikdən o qədər yorulmuşam ki, gecə-gündüz şeytana lənət oxumaq da dadıma çatmır. Tanrım ziyalı adlanan zümrəmizin dadına çatsın. Çatsın ki, yanındakı şeytanı görə və ona daş atmaq bir yana, bircə kəlmə "ayıb olsun" deyə bilsin!..

# Kitabi-Dədə Qorqud” boylarında tərbiyəvi əhəmiyyətli ailə-əxlaq məsələləri

***“Kitabi-Dədə Qorqud” dastanı Türk Dünyasının qiymətli bir xəzinəsidir. Bu adla yaddaşımıza həkk olunan qədim oğuz dastanları Türk Dünyasının yaratdığı milli mədəniyyətin ən zəngin, ulu qaynaqlarından biridir. “Kitabi-Dədə Qorqud” dastanı əsrlərdən gələn bahar çiçəkləri kimi təravətli, həmişə təzə-tər qalan mədəniyyət bağçasıdır. Bu qiymətli sənət əsəri Azərbaycan şifahi və yazılı ədəbiyyatının, tarixinin babasıdır. “Kitabi-Dədə Qorqud” dastanı oğuzların əfsanəvi keçmişini poetik dildə bizə çatdırır.***

Cəmilə Çiçək yazır ki,”Kitabi-Dədə Qorqud” boylarının bir sıra özünəməxsusluqları ilə yanaşı, bu qədim oğuznamədə tərbiyəvi əhəmiyyətli ailə-əxlaq məsələləri, ibrətamiz səhnələr diqqəti xüsusilə cəlb edir. Məsələn, igid bəy oğlunun evlənmək üçün qız seçməsi, həmin qızda hansı keyfiyyət və bacarıqları arzulaması, daha doğrusu, bunları bir tələb kimi irəli sürməsi olduqca ibrətamizdir, maraq doğurur və eyni zamanda istər klassik eşq, istərsə də müasir məhəbbət dastanlarından fərqlənir. Ümumiyyətlə, “Dədə Qorqud” boylarında kişidən də, qadından da eyni keyfiyyətlər tələb olunur. Türkün yaşam tərzinə uyğun gəlməyən tənbəllik, çox yatmaq, sübh tezdən durub atlanmamaq, əl-üzünü yumamaq, qonşuları gəzib-dolanmaq, çox danışmaq və bu kimi

Sözügedən boyda igidin qızı axtarıb tapmaq üçün uzaq səfərə çıxması, ellər, ölkələr dolaşması, onu almaq üçün qoyulan şərtləri yerinə yetirib həyatını təhlükəyə ataraq sınaqlardan keçməsi, bir növ, klassik eşq dastanlarının buta almış aşıq qəhrəmanlarının başlarına gələnləri xatırladır.

“Kitabi-Dədə Qorqud” boylarının qəhrəmanları sevgi, daha doğrusu, ən yaxşı qız almaq uğrundakı imtahanlardan, ən çətin sınaqlardan yalnız özləri Tanrının onlara verdiyi cəsarət, igidlik, bacarıq, qoçaqlıq, çeviklik, güc nəticəsində sağ-salamat, alnıaçıq çıxa bilirlər və həmişə də vüsala çatır, arzuladıqları qızı alırlar. Daha burada nakam sevgi yoxdur.

Lakin klassik eşq dastanlarının sonluqlarına nəzər salsaq, görərik ki, buradakı hadisələr “Kitabi-Dədə Qorqud” boylarındakı hadisələrdən daha çox real həyatla səsləşir.

Sevgidə problem də sırf həyatla səsləşir. Həyatda isə hər şey həmişə arzulanan sonluqla nəticələnmir. Dastanların real həyat detalları ilə daha da zənginləşməsi, buradakı sevgilərin, sevgi sonluqlarının həyatiliyi həm də dövrün, zamanın tələbi kimi meydana çıxır.

Azərbaycanlıların ana kitabı hesab olunan “Kitabi-Dədə Qorqud” boyları özündə tarixin ən dərin qatlarından süzülüb gələn, ailə dəyərlərimizlə bağlı bir çox adətənənələrimizi yaşadır. Qədim oğuz türklərinin genetik bazası əsasında formalaşan Azərbaycan xalqı ilk növbədə bu xalq eposunun hərtərəfli öyrənilməsi, daha dərindən

“Qəhrəmancasına elçilik” ifadəsinin tərkibindəki “qəhrəman” sözü burada yalnız qoçaqlıq, igidlik və mərdliyi, cəsurluğu deyil, eyni zamanda ağsaqqallıq, müdriklik, sadiqlik, xeyirxahlıq anlamlarını ifadə edir. Misal üçün, Cəmilə Çiçək daha sonra yazır ki,” “Bayburanın oğlu Bamsı Beyrək” boyunda el ağsaqqalı, elin bilicisi olan Dədə Qorqudun Dəli Qarcarın yanına onun bacısı Banuçiçəyi Beyrək üçün istəməyə tərəddüdsüz yollanması bir tərəfdən ulu ozanın öz müdrikliyinə, inanclarına güvənməsi ilə bağlıdırsa, həm də Qorqud Atanın xeyirxahlıq missiyası kimi dəyərləndirilməlidir. O, həyatını təhlükəyə ataraq özündə cəsarət tapır ki, elçiliyə getsin. Bu da ozanın, Qorqud Atanın igidlikdə heç də oğuz bəylərindən, igidlərindən geri qalmadığını göstərir.

“Qanlı Qoca oğlu Qanturalı” boyunda isə məsələ xeyli fərqlidir. Burada sevən (daha doğrusu, özünə uyğun qız almaq istəyən) igid öz elçiliyinə özü yollanır. Bu, daha təhlükəli bir səfərdir. Qızı almaq istəyənlər üçün ata -Trabzon təkuru elə şərtlər qoyub ki, bu şərtləri yerinə yetirməkdən heç bir igid sağ-salamat xilas ola bilmir.

Qanturalı bunu bilə-bilə özündə cəsarət tapıb Selcan xatun uğrunda həyatını təhlükəyə atır. Lakin Oğuz igidi burada da təkcə öz fiziki gücünə, qoçaqlığına deyil, eyni zamanda meydanda quduz aslanla, buğa ilə, qara nərlə təkbətək, silahsız-filansız vuruşarkən yanında apardığı qırx igidin dostluğuna, sevgilisinin sədaqətinə, ağsaqqalların dualarına arxalanır. Qanturalıya sarı donlu Selcan xa-

**Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu**

*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə “İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması” istiqaməti çərçivəsində hazırlanıb.*

digər mənfi cəhətlər oğuz igidinin evlənəcəyi qızda qətiyyən olmamalıdır. Qadın ərindən qabaq yuxudan durub əl-üzünü yumalı, çayçörək hazırlamalı, xırda-para vacib ev işlərini əri yuxudan oyanınca görüb qurtarmalı, atlanmağa hazır olmalıdır. Qoçaqlıqda, cəsurluqda, qılınc çalmaqda, ox atmaqda, at çapmaqda, baş kəsməkdə, savaşmaqda ərinə uyğun gəlməlidir. “Qanlı qoca oğlu Qanturalı boyu”na nəzər salsaq, bunları aydın görərik. Belə ki, Qanturalı evlənəcəyi qızda arzuladığı ən başlıca keyfiyyətləri aşağıdakı kimi sadalayır:

“? Baba, mən yerimdən durmadan ol durmuş ola. Mən qara qoç atıma minmədən ol minmiş ola. Mən qanlı kafir elinə varmadan ol varmış, mənə baş gətirmiş ola”. Göründüyü kimi, burada gözəllik, incəlik, zəriflik arxa planda dayanır. Qoyulan əsas tələblər qoçaqlıq, çeviklik, mərdlik, cəsurluqdur. Hətta sevginin özü belə ilkin mərhələdə ön plana çıxmır. Sadəcə, qəti bir əminlik var ki, tələb olunan keyfiyyətləri özündə cəmləşdirmiş istənilən qızın çirkin, xoşa gəlməyən olması mümkün deyil. O, hökmən xarici görünüşcə də gözəl olur və igid onu tapınca şəksiz-şübhəsiz vurulur, sevir, aşiq olur.

dərki nəticəsində tarix səhnəsində öz yerini, rolunu, kimliyini dəqiq müəyyənləşdirə bilər. Bu baxımdan “Dədə Qorqud”un daha da hərtərəfli araşdırılmasına, ciddi tədqiqat obyektinə çevrilməsinə böyük ehtiyac var.

Ümumiyyətlə, “Kitabi-Dədə Qorqud” dastanının yenidən dəyərləndirilməsinə, psixoanalizinin aparılmasına, mahiyyətinin açılmasına, folklor nümunələri arasında, eləcə də xalqımızın həyatında, tarixində yerinin, mövqeyinin müəyyənləşdirilməsinə, ailə dəyərləri sisteminə təsirinin öyrənilməsinə böyük zərurət duyulur.

Bu məqamda vurğulayaq ki, “Kitabi-Dədə Qorqud” eposunun qələmə alınması tarixinin xalq yazıçısı Anarın təşəbbüsü və Heydər Əliyevin razılığı ilə 1300 il bundan əvvəl müəyyənləşdirilməsinin səbəblərindən biri, bəlkə də ən başlıcası bu möhtəşəm xalq ensiklopediyasının məhz bizim milli pasportumuz kimi bəşəriyyətə təqdim edilməsi istəyindən irəli gəlir...

Eposun müxtəlif boylarında təsadüf edilən ailə dəyərlər sisteminin maraqlı tərəfləri, məsələn, qəhrəmancasına elçilik motivləri də əski Azərbaycan yaşam tərzinin, evlilik, ailə mədəniyyətinin bariz nümunəsi olan adətlərdəndir.

tunun eşqinə müqəddəs qopuzunun sədaları altında elə bir güc gəlir ki, o, buğanı və quduz aslanı asanlıqla məhv eləyə bilir. Növbə qara buğraya çatanda igid artıq xeyli yorulmuşdu. Dəvənin qoltuğundan girir və başı hərlənib yıxılır. Onu görəndən bəri igidə bir könüldən min könülə vurulub aşiq olan Selcan xatun çox narahatlıq keçirir. Beləliklə, Qanturalı qızın dediyi kimi etməyi şəninə sığışdırmayıb, başqa üsulla dəvəni də məğlub edir. Sarı donlu Selcan xatunu alıb geri dönür.

“Kitabi-Dədə Qorqud” boylarındakı qəhrəmancasına elçilik motivləri, ailə-əxlaq prinsipləri əski dünyaduyumuna əsaslansa da, onun müəyyən əlamətləri islam zamanının klassik eşq dastanlarında hiss olunmaqdadır.

Əvvəlcə qeyd edək ki, klassik eşq dastanlarında rast gəldiyimiz qəhrəmancasına elçilik məsələlərində vəziyyət tamamilə fərqlidir. Məlum olduğu kimi, aşiqə yuxuda buta verilir. Qız da buta alır. Oğlan sazını götürüb yuxuda ona buta verilən qızın sorağıyla uzaq səfərlərə çıxır və s. Bir sözlə, o - aşıq qəhrəman - Haqq aşığı, əslində, elçilik etmir. Gedib qızı tapır və deyir: ölsəm də, qalsam da, bu qız mənimdir. Qız da onu sevir. Aşiqin burada silahı, yarağı yalnız aşıqlığıdır. Dədə Qorqud boylarında olduğu kimi, eşq dastanı qəhrəmanı fövqəltəbii “ağa”sına güvənib, özünü bütün təhlükələrə gözüyumulu atır. Burada dünyəvi sevgidən söhbət gedir. Sadəcə, dövrün, zamanın qaydaqanunları dəyişib, sevgi azaddır. Müasir dastanın aşiq qəhrəmanı sevdiyi qızın valideynlərinə qızlarını sevdiyini açıq-aşkar deyə, etiraf edə bilir. Artıq, bir növ, bu, normal haldır və o qədər də ciddi qəzəblə qarşılanmır. Burada qarşıya çıxa biləcək başlıca problem qızın aşiqi bəyənməməsi ola bilər ki, buna da çox az halda təsadüf edilir. Fəqət qızlarını sevən (həm də əksinə, qızın sevdiyi) oğlanı valideynlərin bəyənməməsi, qızı öz seçdikləri, nəzərdə tutduqları başqa bir oğlana vermək niyyətləri günümüzdə yaranan məhəbbət dastanlarında, bədii əsərlərdə, əsasən, aparıcı mövqe tutur. Yeni dastanlardakı aşiq obrazlarının qəhrəmancasına elçiliyi isə sevdikləri qızın valideynləri ilə şəxsən görüşüb, onları amansız fikirlərindən çəkindirməyə cəhd etmələrindən, özlərinin daha üstün əlamət, istedad, bacarıq və keyfiyyətlərə malik olduqlarını nümayiş etdirməkdən ibarətdir.

Dastanlarda əks olunan hadisələrdən də göründüyü kimi, bir sıra oxşar xüsusiyyətlərlə yanaşı, “Dədə Qorqud” boyları ilə sonrakı dastanlardakı xüsusən ailə-əxlaq, evlənmə, elçilik, sevgiyə münasibət məsələləri çağdaş dövrümüzdə öz aktuallığını saxlamaqdadır və ailə dəyərlər sistemində xüsusi yer tutur.

Kitabi-Dədə Qorqud” oğuz türklərinin dastanıdır. Dastanın ilk mötəbər tədqiqatçılarından V.V.Bartold onun Qafqaz mühitində yarandığını qeyd edir. “Kitabi-Dədə Qorqud”un mükəmməl nəşrini çap etdirən böyük türk alimi O.Ş.Gökyay Drezden nüsxəsində açıq olaraq “Azərbaycan şivəsi özəllikləri gözə çarpmaqdadır” - deyir. Fuad Köprülü, Məhərrəm Ergin kimi nüfuzlu qorqudşünasların, habelə V.V.Bartold, V.M.Jirmunski, A.H.Kononov, A.Y.Yakubovski kimi rus türkoloqlarının, təbii ki, tanınmış Azərbaycan filoloqlarının dəfələrlə təsdiq etdikləri kimi “Kitabi-Dədə Qorqud” dil xüsusiyyətləri, cərəyan edən hadisələrin coğrafi məkanı baxımından daha çox Azərbaycanla bağlıdır. Ümummilli lider Heydər Əliyev “Kitabi-Dədə Qorqud”la əlaqədar keçirilən Dövlət Komissiyasının iclasında demişdir: “Kitabi-Dədə Qorqud” dastanı bütün Türk dünyasına məxsusdur, onun vətəni Azərbaycandır, sahibi Azərbaycan xalqıdır, müstəqil Azərbaycan dövlətidir”.

***Vahid Ömərov f.ü.f.d.***

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

# SƏS

## Son səhifə

20 avqust

# Ronald Kumanın “Barselona”nın baş məşqçisi oldu!



Kataloniya klubunun rəsmi saytında yer alan məlumatda deyilir ki, 57 yaşlı mütəxəssislə 2022-ci ilin yayına qədər müqavilə imzalanıb. “Barselona”ya görə 2018-ci ildən çalışdırdığı Niderland millisindən ayrılan Kuman yeni komandasında bir neçə gün əvvəl istefaya göndərilən Kike Setyeni əvəzləyib. Qeyd edək ki, niderlandlı mütəxəssis 1998-2000-ci illərdə Kataloniya klubunda köməkçi məşqçi kimi çalışıb. O, futbolçu kimi də 1989-1995-ci illərdə bu komandanın şərəfini qoruyub.

# “Qarabağ” qələbə qazandı, ölkəmiz UEFA reytinqində irəlilədi!



Avrokuboklarda 1-ci təsnifat mərhələsinin oyunlarından sonra UEFA-nın yeni reytinqi açıqlanıb. Qol.az xəbər verir ki, keçirilən 6 oyundan sonra cədvəldə dəyişikliklər olub. UEFA Çempionlar Liqasının 1-ci turunda ötən gün “Sileks”ə (Şimali Makedoniya) 4 cavabsız qolla qalib gələn “Qarabağ” Azərbaycanın xalını artırıb və mövqeyini yüksəldib.

Aktivinə 0,375 xal yazan Azərbaycan son beş mövsümün nəticələrinə əsasən 14.750 xalla 26-cı yerdən 24-cü pilləyə yüksəlib. Buna həm də Qazaxıstanın Çempionlar Liqasındakı təmsilçisi “Astana”nın Belarus “Dinamo”suna məğlubiyyəti (3:6) səbəb olub. Ölkəmizi Qazaxıstan (25), Norveç (26) və Rumıniya (27) izləyir. 23-cü yerdə olan Bolqarıstan isə Azərbaycanı 1.625 xal qabaqlayır. Qeyd edək ki, siyahıda İspaniya 1-ci, İngiltərə 2-ci, İtaliya 3-cüdür

# Zob xəstəliyi olanlar, bu yazını mütləq oxuyun!



Sitrus meyvələrindən olan feyxoa ağacı hündürlüyü 6 metrə çatan həmişəyaşıl, alçaq gövdəli bitkidir. Mənfi 16 dərəcəyə qədər temperatura davam gətirir. Əkiləndən üç il sonra meyvə verməyə başlayan ağacın məhsulu çiçəkləmə dövründən dörd-beş ay sonra yetişir və yığılır.

AZƏRTAC tibbi saytlara istinadla xəbər verir ki, Braziliya təbiətşünası Joao da Silva Feyxo ilk dəfə feyxoanı XIX əsrdə yetişdirib və meyvə adı onun şərəfinə verilib. Qərbi Paraqvay və cənubi Braziliyada təbii halda yetişir. Ölkəmizdə onu Lənkəran və Astara rayonlarında yetişdirirlər.

Feyxoanın insan sağlamlığı üçün çox faydası var, ondan dərman kimi də istifadə olunur. Feyxoanın tərkibində olan S vitamini soyuqdəymə zamanı və qrip epidemiyalarında əvəzolunmaz vasitədir. Onun tərkibində olan dəmir, selen, maqnezium maddələri orqanizmin bir sıra funksiyalarında müsbət rol oynayır.

Onun tərkibində suda həll olunan yod birləşmələrinin olması meyvəyə xüsusi özəllik verir. 1 kiloqram feyxoanın tərkibində 2 milliqramdan 10 milliqrama qədər yod var. Ona görə də yod çatışmazlığı xəstəliyindən əziyyət çəkənlər ondan istifadə etməlidirlər. Zob xəstəliyi olanlar üçün feyxoanı yemək və şirəsini içmək çox faydalıdır.

Feyxoanın lətinin ağ olması meyvənin tam yetişmədiyini göstərir. Lətin tünd və ya açıq qəhvəyi rəngdə olması isə onun xarab olmasına işarədir. Feyxoanın xüsusilə qabığında olan fenol birləşmələri antioksidantlar sayılır. Antioksidantlar xərçəng xəstəliyinin profilaktikası üçün olduqca vacib olan maddələrdir. Soyuqdəymədən əziyyət çəkənlərə feyxoadan hazırlanmış çay içmək məsləhətdir. Feyxoa arterial təzyiqin tənzimlənməsinə və bağırsaqların fəaliyyətini yaxşılaşdırmağa da kömək edir. Feyxoadan zəhərlənmə riski böyükdür. Tərkibində şəkərin miqdarı çox olduğuna görə diabet və piylənmədən əziyyət çəkənlərə feyxoa yemək məsləhət görülmür. Körpə uşaqlara da onun verilməsi düzgün deyil.

# Maştağada evində odlu silah gizlədən şəxs tutulub



Sabunçu Rayon Polis İdarəsinin 14-cü və 42-ci polis bölməsinin əməkdaşlarının birgə həyata keçirdikləri əməliyyat tədbirləri nəticəsində rayonda yaşadığı evdə qanunsuz olaraq odlu silah-sursat gizlədən şəxs saxlanılıb.

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, daxil olmuş məlumat əsasında keçirilmiş əməliyyat tədbiri zamanı əvvəllər məhkum olunmuş Maştağa qəsəbəsi sakini Murad Əliyev tutulub. Onun evinə baxış zamanı lüləyi kəsilmiş ov tüfəngi və altı patron aşkarlanaraq götürülüb. Faktla bağlı rayon polis idarəsinin istintaq şöbəsində əməliyyat-istintaq tədbirləri davam etdirilir.

# Altı ayda Azərbaycanda nikaha girənlərin sayı açıqlandı



Bu ilin ilk altı ayı ərzində Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri tərəfindən 17 min 841 nikah və 7107 boşanma halı qeydə alınıb. Əhalinin hər 1000 nəfərinə nikahların sayı 3,6, boşanmaların sayı isə 1,4 olub.

Bu barədə AZƏRTAC-a Dövlət Statistika Komitəsindən məlumat verilib. Bununla yanaşı, yanvar-iyun aylarında Daxili İşlər Nazirliyi və Dövlət Miqrasiya Xidmətinin müvafiq qurumları tərəfindən daimi yaşamaq üçün Azərbaycana 820 nəfər gələn və ölkədən 374 nəfər gedən qeydə alınıb. Ölkə üzrə miqrasiya saldosu müsbət 446 nəfər təşkil edib.

# Balakəndə ölümlə nəticələnən yol qəzası olub



Balakəndə ölümlə nəticələnən yol-nəqliyyat hadisəsi baş verib. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Balakən rayonunun Qabaqçöl qəsəbəsi ərazisində rayon sakinləri İ.Abduyevin idarə etdiyi “VAZ-21099” və Ö.Əlibəyevin idarə etdiyi “VAZ-21014” markalı avtomobillər toqquşub. Nəticədə İ.Abduyevin avtomobilində olan sərnişin Həvva Məmmədova hadisə yerində ölüb. Hadisə ilə bağlı Balakən Rayon Polis Şöbəsi tərəfindən araşdırma aparılır.

***Baş redaktor:***

**Bəhruz Quliyev**

***Baş redaktorun müavinləri:***

**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet “Səs”in komputer mərkəzində yığılır, səhifələnir.**
**“Azərbaycan” nəşriyyatında çap olunur**
***Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.***

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**